## İlin sonuna qədər sülh sazişinin imzalanması mümkündür

Paşinyan hökuməti dərk edir ki, cəsarətli mövqe tutmadan sülhə nail olmaq qeyri-mümkün olacaq



**Ermənistanın Baş naziri Nikol Paşinyan bəyan edib ki, öz tərəfindən Azərbaycanla sazişin ilin sonunadək imzalanması üçün hər şeyi edəcək.**

Onun sözlərinə görə, danışıqlar prosesində müəyyən müsbət irəliləyişlər var: "Əgər biz həqiqi sülhə nail olsaq, sülh müqaviləsi imzalasaq, Ermənistan qarşılıqlı prinsip əsasında Azərbaycana qarşı beynəlxalq iddialardan imtina etməyə hazırdır".

(səh.3)



## Laçında zəlzələ baş verib

Ermənistanda da hiss olunub

**Fövqəladə Hallar Nazirliyi Laçında baş verən zəlzələ barədə məlumat yayıb.**

Nazirlikdən bildirilib ki, zəlzələ nəticəsində hər hansı dağıntı və ya insan xəsarəti barədə bu vaxtadək FHN-ə məlumat daxil olmayıb.

*Qeyd edək ki, Ermənistanın Daxili İşlər Nazirliyi də Azərbaycanda baş verən zəlzələ barədə məlumat yayıb. Məlumata görə, zəlzələ Azərbaycanla həmsərhəd olan Gorus, Mehri, Qafan və daha bir neçə yaşayış məntəqəsində hiss olunub.*


№ 214 (6215) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 noyabr 2024-cü il (bazar)





## COP29 zolaqları noyabrın 25-dən qüvvədən düşəcək

**Noyabrın 25-dən COP29 zolaqları qüvvədən düşmüş hesab ediləcək.**

Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib. Məlumatda deyilir ki, ictimai nəqliyyatın xüsusi zolaqlar şəbəkəsinə daxil olmayan, məhz COP29 nəqliyyat əməliyyatlarının təşkili üçün çəkilmiş zolaqlar tədbir yekunlaşdıqdan sonra öz qüvvəsini itirəcək. "Bu məqsədlə AYNA tərəfindən qeyd edilən zolaqlarda 5.9 avtobus zolağını bildirən yol nişanlarının sökülməsi və xətlərin silinməsi işlərinə başlanılıb. Yol nişanları çıxarılmış zolaqlar artıq qüvvədən düşmüş hesab olunacaq. 25 noyabr tarixinədək müvafiq nişanların çıxarılması işləri icra ediləcək", - deyə məlumatda qeyd olunub.



## Bütün ölkələrin nümayəndələri alqışladılar

COP29-da Azərbaycana minnətdarlıq ifadə olunan qətnamə qəbul edilib

**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekun plenar iclası bu tədbirin gözəl təşkilinə görə Azərbaycana minnətdarlıq ifadə olunan qətnamə qəbul edilib.**

Müxtəlif ölkələrin nümayəndələri "COP29-un gözəl təşkilinə görə Azərbaycan hökumətinə və Azərbaycan xalqına minnətdarlıq" adlı qətnaməyə öz münasibətini alqışlarla ifadə ediblər.

## COP29 təsdiqlədi

Azərbaycan Cənubi Qafqazın ən təhlükəsiz ölkəsidir



**Azərbaycan davamlı uğurları, ev sahibliyi etdiyi beynəlxalq tədbirlərlə hər zaman dünyanın diqqətində olub.**

Bu günlərdə Azərbaycanı beynəlxalq aləmin diqqətində saxlayan, dünyanı Bakıya toplayan məhz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-dur. Tədbirin hər günü Azərbaycanın beynəlxalq nüfuzunu artıran yeni mühüm hadisələrlə yadda qaldı.

(səh.4)

# Tarixi qərar verildi

COP29-un bağlanış plenar iclasında Paris Sazişinin 6-cı maddəsi tam təsdiqlənib




**COP29-da Paris Sazişinin 6-cı maddəsinin tam icrasına nail olunub, beynəlxalq karbon bazarları açılır.**

COP29 Sədrliyi dünən Paris Sazişinin 6-cı maddəsinə əsasən yüksək inteqrasiya olunmuş karbon bazarları üzrə danışıqları yekunlaşdırmaq üçün onillik gözləmə müddətinin başa çatdığını elan edib.

Qeyd edilir ki, bu, builki Sədrliyin əsas prioritetlərindən biri idi və intensiv texniki və siyasi danışıqlar vasitəsilə Tərəfləri bu mühüm nailiyyətə doğru sövq etdi. Bu strategiya illərlə davam edən çıxılmaz vəziyyəti aradan qaldırır və Paris Sazişinin son bəndini tamamlayır.

Sözügedən maddə iqlim məqsədlərinə nail olmaq istiqamətində əməkdaşlıq aparan ölkələr üçün möhkəm və şəffaf karbon bazarları təmin edir.

Bu transsərhəd əməkdaşlığın ölkələrin milli iqlim planlarının həyata keçirilməsi xərclərini ildə 250 milyard dollara qədər azaldacağı gözlənilir.

(səh.2)

# Sonuncu dərs, birinci olmalıdır

Fiziki tərbiyə dərsləri ilə bağlı xüsusi mexanizm hazırlanmalı, bu fənlərin dərs saatları artırılmalıdır



**Müasir dövrdə fiziki tərbiyə və idman öz aktuallığını qoruyub saxlayır.**

Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi, idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və 50-yə yaxın olimpiya idman kompleksinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

(səh.6)



## Burada 2 məqsəd var

And içməyənlər Rusiya vətəndaşlığını itirəcək

**Rusiya Daxili İşlər Nazirliyi ölkə vətəndaşlığını qəbul etmiş, lakin andiçmə prosedurundan keçməmiş şəxsləri noyabrın 23-dən etibarən Rusiya Federasiyasının vətəndaşı statusundan məhrum etməyə başlayıb.**

Müvafiq normalar Rusiya Federasiyası Prezidentinin vətəndaşlıq məsələləri ilə bağlı fərmanında müəyyən edilib. Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin mətbuat mərkəzi bundan əvvəl noyabrın 22-nin bu kateqoriyadan olan vətəndaşlar üçün son andiçmə tarixi olduğunu açıqlamışdı.

(səh.5)

## Qurbanov əsəbiləşdi

"Mənə bir də bu sualı verməyin!"




**Mənim üçün ən çətin suallar milli ilə bağlı olan suallardır. Orada mənim həmkarlarım var, həm də İcraiyyə Komitəsindəyəm.**

Bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov dünən Misli Premyer Liqasının 14-cü turunda "Səbail"ə 3:0 hesabı ilə qalib gəldikləri oyundan sonra milliyə baş məşqçi gətiriləcəyi ilə bağlı iddiaları şərh edərkən deyib.

"Xahiş edirəm, mənə bir də bu barədə sual verməyəsiniz. Hər qurumun öz idarəçiləri var. Bu dəqiqə fikrim "Qarabağ"dadır", - Q.Qurbanov qeyd edib.

## Sirkə turşusundan zəhərlənən qadın xəstəxanada ölüb



**Sabirabadda sirkə turşusundan zəhərlənən qadın xəstəxanada ölüb.**

APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Sabirabad rayonunun Güdəcühür kəndində məskunlaşan Cəbrayıl rayonunun Şahvəlli kənd sakini, 1957-ci il təvəllüdlü Əhmədova Pəkuzə Məhəmməd qızı 2 gün əvvəl 72%-li sirkə turşusundan zəhərlənib. 67 yaşlı qadın mədənin və qida borusunun kimyəvi yanıq diaqnozu ilə Şirvan şəhər xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, o, müalicə aldığı xəstəxanada vəfat edib.



## Rusiya nüvə silahının tətbiqindən həlaki çəkinir

Ukrayna döyüş qabiliyyətini təkmilləşdirməyə və özünü uzunmüddətli perspektiv üçün dayanıqlı olmağa hazırlayır

(səh.3)



## 45 qadın ölüm növbəsindədir

Əjdər Tağızadə: "Pezeşkianın gəlişindən sonra 450 nəfər edam edilib"

(səh.4)



# Tarixi qərar verildi

## COP29-un bağlanış plenar iclasında Paris Sazişinin 6-cı maddəsi tam təsdiqlənib

**COP29-da Paris Sazişinin 6-cı maddəsinin tam icrasına nail olunub, beynəlxalq karbon bazarları açılır.**

**COP29 Sədrliyi dünən Paris Sazişinin 6-cı maddəsinə əsasən yüksək inteqrasiya olunmuş karbon bazarları üzrə danışıqları yekunlaşdırmaq üçün onillik gözləmə müddətinin başa çatdığını elan edib.**

Qeyd edilir ki, bu, builki Sədrliyin əsas prioritetlərindən biri idi və intensiv texniki və siyasi danışıqlar vasitəsilə Tərəfləri bu mühüm nailiyyətə doğru sövq etdi. Bu strategiya illərlə davam edən çıxılmaz vəziyyəti aradan qaldırır və Paris Sazişinin son bəndini tamamlayır.

Sözügedən maddə iqlim məqsədlərinə nail olmaq istiqamətində əməkdaşlıq aparan ölkələr üçün möhkəm və şəffaf karbon bazarları təmin edir.

Bu transsərhəd əməkdaşlığın ölkələrin milli iqlim planlarının həyata keçirilməsi xərclərini ildə 250 milyard dollara qədər azaldacağı gözlənilir.

COP29 Sədrliyi Tərəfləri bu qənaətləri daha böyük iqlim ambisiyalarına təkrar investisiya etməyə çağırır. Fevralda təqdim olunacaq Milli səviyyədə müəyyən edilmiş töhfələrin növbəti nəsli, dünyanın 1,5 dərəcəni əlçatanlıqda saxlamaq ümidləri üçün çox vacibdir. Bugünkü mərhələ ölkələrə iqlim planlarında daha iddialı öhdəliklər götürməyə kömək edəcək.

COP29 prezidenti Muxtar Babayev deyib: "Biz onillik gözləməyə son qoyduq və 1,5 dərəcəni əlçatanlıqda saxlamaq üçün kritik aləti açdıq. İqlim dəyişikliyi transmilli məsələdir və 6-cı maddə transmilli həll yollarına imkan verəcək. Çünki atmosfer emissiyalara qənaətin harada əldə olunduğuna əhəmiyyət vermir".

COP29-un baş danışıqçısı Yalçın Rəfiyev bildirib: "Bu gün biz iqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birini çözmüşük. 6-cı maddəni başa düşmək çətindir, lakin onun təsiri bizim gündəlik həyatımızda aydın olacaq. Bu, kömür elektrik stansiyalarının dayandırılması, külək stansiyalarının tikintisi və meşələrin salınması deməkdir. Bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir".

Qeyd olunur ki, Qlazqo və Şarm əl-Şeyxdə keçirilən COP-larda karbon bazarları üçün mühüm qaydalar, şərtlər və prosedurlar müəyyən edilsə də, 6-cı maddənin yekun əsas elementləri həll edilməmiş qalırdı. COP29-dan əvvəl bu danışıqlar dalana dirənmişdi və iqlim sahəsində daha sıx beynəlxalq əməkdaşlığa gedən yolda baha başa gələn gecikmələrə səbəb olmuşdu.

COP29 Sədrliyi əvvəlki çoxtərəfli çıxılmaz vəziyyətləri aradan qaldıran məqsədyönlü bir yanaşma tətbiq etdi. İlboyu Sədrlik Tərəflər arasında məhsuldar əlaqələri asanlaşdırdı və konsensusa nail olmaq üçün texniki və siyasi müzakirələri birləşdirərək irəliləyişə nail oldu. Bu, COP29-un ilk günündə 6.4-cü maddənin standartlarının erkən qəbulu üçün zəmin yaratdı və bugünkü nəticəyə zəmin yaratdı.

COP29 Sədrliyi bugünkü tərəqqiyə nail olmaq üçün on il ərzində yorulmadan çalışan şəxslərə və təşkilatlara təşəkkürünü bildirir. Hazırkı konsensus onların uzunillik səyləri nəticəsində mümkün olub.

"Bu gün 6-cı maddə üzrə yekdilliklə qəbul olunan qərarlar karbon bazarlarının ekoloji bütövlüyünün, şəffaflığının və etibarlılığının real, artan, yoxlanılan və ölçülə bilən tullantıların azaldılması və çıxarılması yolu ilə təmin edilməsində və qlobal iqlim sərmayəsini artırmaq üçün onların böyük potensialının açılmasında əsas rol oynayacaq", - COP29 Sədrliyi bəyan edib. (Report)

"Qəbul edilmiş təlimat və qaydalar karbon layihələrinin praktiki və inklüziv qalmasını təmin etmək, insan hüquqlarına hörmət etmək və davamlı inkişafı dəstəkləmək, ölkələrə və layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində inamla əməkdaşlıq etməyə imkan vermək üçün nəzərdə tutulub. Bu qərarların verilməsi onların təkamülünün sonu demək deyil. Tərəflər təcrübədən öyrəndikləri kimi 6-cı maddənin qaydalarına davamlı olaraq düzəliş edə bilərlər", - bəyanatda bildirilir.

# Paşinyan İcmanın dialoq çağırışlarına cavab verməlidir

## Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb

**Azərbaycan Respublikası Milli Məclisinin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb.**



Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsi və uydurma "Qərbi Ermənistan" anlayışı arasında paralel aparmaq cəhdi qəbuledilməzdir

"Şərq" bəyanatı təqdim edir: "Ermənistanın baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsi və uydurma "Qərbi Ermənistan" anlayışı arasında paralel aparmaq cəhdi qəbuledilməzdir.

Qərbi Azərbaycan məsələsi etnik təmizləməyə məruz qalmış azərbaycanlıların Ermənistana dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına xidmət edən insan hüquqları mövzusudur. "Qərbi Ermənistan" ifadəsi isə Ermənistanın Konstitusiyası və digər əsas sənədlərində və siyasi addımlarında öz əksini tapmış ərazi iddiasıdır.

Baş nazirin ən azı sözdə uydurma "Qərbi Ermənistan" anlayışını sual altına alması, "mifik Ermənistandan real Ermənistana keçmək" barədə bəyanatları, əslində, çoxdan atılmalı olan addımlardır. Lakin bu, etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların sülh yolu ilə öz evlərinə qayıtmaq hüququ hesabına başa gəlməməlidir.

Bizim insan hüquqlarına əsaslanan haqq işimizi ərazi iddiası ilə müqayisə etmək yolverilməzdir. Bir daha xatırladaq ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə müraciət edərək, Qərbi azərbaycanlıların qayıdışı ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə tam riayət olunmaqla dialoq başlatmağı təklif edib. Lakin Ermənistan bu çağırışlara məhəl qoymayıb və qəsdən İcmanın fəaliyyətini özünün ərazi bütövlüyünə təhdid kimi təhrif edib.

Baş nazir Paşinyan belə yanlış müqayisələr aparmaq əvəzinə, İcmanın dialoq çağırışlarına cavab verməli, Qərbi azərbaycanlıların təhlükəsiz, ləyaqətli qayıdışını təmin etməli, Ermənistanın Konstitusiyasından və digər sənədlərdən Azərbaycana və digər qonşu dövlətlərə qarşı ərazi iddialarını dərhal, qeyd-şərtsiz çıxarmaq üzərində işləməli, eyni zamanda, təhlükəli militarizasiya siyasətinə son qoymalıdır".

# Qlobal iqlim fəlakətinə səbəb olan Qərbdir

## Azərbaycanın əleyhinə fəaliyyət göstərən güclər məsuliyyətdən qaçır

**Noyabrın 11-dən etibarən Bakıda işinə başlayan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəfləri Konfransının 29-cu sessiyası (COP29) yekunlaşmaq üzrədir.**




Dünyanın 196 ölkəsindən75 min iştirakçının qeydiyyatdan keçdiyi bu tədbirdə dünyada iqlim dəyişiklikləri, qlobal istiləşmə, su ehtiyatlarının bərabər paylanılması, atmosferə buraxılan karbon qazının həcminin azaldılması ilə bağlı çox mühüm məsələlər müzakirə edilib.

Azərbaycanın ev sahibliyi etdiyi bu tədbirdə 80-dən artıq dövlət başçısı, hökumət nümayəndələri iştirak edib. Bu dövlətlər öz texnologiyaları sayəsində əldə etdikləri uğur və nailiyyətləri də bölüşmək imkanı əldə ediblər.

COP29 beynəlxalq əməkdaşlığın genişləndirilməsində, yeni tərəfdaşlıq əlaqələrinin qurulmasında mühüm rol oynadığı kimi, dünyanın gələcəyinə, siyasi, iqtisadi, ekoloji problemlərin araşdırılması və həlli yollarına da işıq salıb.

Müstəqil Azərbaycanın dünyaca böyük nüfuzundan xəbər verən bu beynəlxalq tədbirdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çıxışı, habelə həyatın bütün sahələrinə nüfuz edən iqlim dəyişmələrinə dair qarşıya qoyulan məsələlər ölkə ictimaiyyətində qürur hissi və məmnunluq yaradıb.

Bütün bunlar göstərir ki, COP29-un Azərbaycan üçün əhəmiyyəti çox böyükdür və regionun lider dövləti kimi hədəflərimizə nail olduq.

Dünyanın gözü qarşısında bir daha sübut olundu ki, Azərbaycan təhlükəsiz ölkədir, insanlar rahat şəkildə bu ölkəyə səfər edə bilərlər. Ən diqqət çəkən məsələlərdən biri o oldu ki, COP29 zamanı bir dəfə də olsun narahatedici hadisə yaşanmadı, əsl tədbirin mahiyyətinə uyğun yüksək səviyyədə müzakirə platforması keçirildi.

Nəhayət, COP29 ərəfəsi və tədbirin baş tutduğu dövrdə Azərbaycana qarşı hücumlar, təşkilatçılar, icraçıları məqsədlərinə çatmadı. Azərbaycan adına, vədinə yaraşan nəticələr əldə etdi və dünyada nüfuzu daha da artdı.

COP29 öncəsi və tədbir zamanı Qərbin bəzi üzdəniraq dairələri tərəfindən Azərbaycana qarşı iyrənc, qərəzli, açıq-aşkar düşmənçilik xarakteri daşıyan kampaniya aparıldı. Ümumulikdə ölkəmizə qarşı bütün bu kampaniya hibrid müharibənin ən eybəcər forması idi. Bu şəbəkənin qarşısına COP dövründə bütün metodlardan istifadə etməklə, hətta ən alçaq və təhqiramiz metodlara əl atmaqla Azərbaycanı nüfuzdan salmaq vəzifəsi qoyulmuşdu.

Çünki Qarabağ zəfərindən sonra Azərbaycana qarşı qısqanclıq, paxıllıq və riyakarlıq hökm sürürdü. Onlar Azərbaycanın dünya miqyaslı və BMT sistemində ən böyük tədbir olan COP29-a ev sahibliyi etməsini həzm edə bilmirdilər.

Azərbaycanı tələm-tələsik Ermənistanla sülh müqaviləsinə vadar etməyə can atırdılar. Bu məsələdə C.Bayden Administrasiyası xüsusi canfəşanlıq edirdi. Azərbaycan xalqına qarşı hərbi cinayətlər törətmiş mənfurların azad olunmasına nail olmaq istəyirdilər.

4 illik hakimiyyəti boyu uğursuzluqlarla yadda qalan C.Bayden, guya Ermənistanla Azərbaycan arasında sülhə nail olmaqla və hətta sülh müqaviləsinin Vaşinqtonda imzalanmasını təmin etməklə özünə xal qazanmaq və Nobel sülh mükafatına layiq olmaq kimi hədəflər güdürdü.

Başlıca hədəflərdən biri Azərbaycanın neft-qaz sənayesini sıradan çıxarmaq və Azərbaycanı bu sahədə qeyri-real olan öhdəliklər altına salmaq niyyəti güdürdülər. Hər vəchlə Qarabağ ermənilərini yenidən Azərbaycan torpaqlarına qaytarmaq və Azərbaycan xalqı üçün yeni terror və separatizm yuvası qurmaq arzuları var idi. Bununla da regionu yenidən öz bildikləri kimi idarə etmək üçün vasitələrə əl atırdılar.

Qərb bütün bu çirkin vasitələrlə ev sahibi və sədr ölkə kimi Azərbaycana təzyiq göstərərək iqlim maliyyələşməsi üzrə öhdəliklərindən qaçmağa çalışırdı. Bakıda aparılan müzakirələr də bunu bir daha göstərir. Dünya Qərbdən 1 trilyon vəsait gözlədiyi halda, Qərb yalnız 250 milyard dollarlıq vəsaitlə ortaya çıxdı. Qəsdən bu rəqəmi də tədbirin ən son günü açıqladı ki, əlavə müzakirələr üçün vaxt qalmasın. Bütün dünyanı karbon qazı ilə zəhərləyən və qlobal iqlim fəlakətinə səbəb olan Qərb indi məsuliyyətini başqalarının üzərinə yıxmağa çalışırdı. Amma necə deyərlər bütün arzuları ürəklərində qaldı və Azərbaycan dünyaya əsl nümunə olacaq bir tədbirlə qabiliyyətini, gücünü, liderlik bacarığını ortaya qoydu.

**Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovda "Şərq"ə açıqlamasında COP29 tədbirinin yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Ekoloq qeyd edib ki, ölkəmizin milli inkişaf strategiyasında ətraf mühitə təsir və onun qorunması əhəmiyyətli bir yer tutur:** "Müasir dövrün ən böyük ekoloji hadisələrindən biri olan COP29 (Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Konfransı) ölkəmiz üçün tarixində bir ilkdir və həm regional, həm də qlobal ekoloji siyasətdə yeni trendlərin inkişafına təkan verəcək. Bu tədbirin Azərbaycan torpağında keçirilməsi, ölkəmizin ətraf mühit sahəsindəki strateji mövqeyinin gücləndirilməsi üçün böyük bir fürsət yaradır. COP29-un Azərbaycanda keçirilməsi, yerli və beynəlxalq səviyyədə ətraf mühit məsələlərinə daha çox diqqət ayrılmasına səbəb ola bilər. Bu tədbir, ölkənin ekoloji problemləri və potensial həlləri haqqında daha geniş bir müzakirə başlatmağa imkan verəcək.

Bununla yanaşı, qlobal iqlim siyasətində və dayanıqlı inkişafda Azərbaycanla əməkdaşlığın artması mümkündür. Müstəqilliyini çox da keçmişdə əldə etməyən bir dövlətin bu cür beynəlxalq tədbirə ev sahibliyi etməsi, həm də onun regional güc olaraq əhəmiyyətini artırır".

Rövşən Abbasov onu da deyib ki, COP29 kimi böyük tədbirin Azərbaycanda keçirilməsi yerli və beynəlxalq səviyyədə ətraf mühit məsələlərinə daha çox diqqət ayrılmasına səbəb olacaq.

**Ekoloq həmçinin COP29 tədbirinin daha çox beynəlxalq və yüksəksəviyyəli bəyannamələrlə yadda qalacağını qeyd edib. Onun sözlərinə görə, Su və İqlim bəyannaməsi, Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyətinə dair COP29 Bəyannaməsi, hansı ki 50-dən çox hökumət təsdiq edib, eyni zamanda İqlimə davamlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət Yolları (MAP) Bəyannaməsi kifayət qədər əhəmiyyətli bir sənəddir:** "Bu bəyannamələrin hər biri təbii resurslardan dayanıqlı istifadəni və istixana qazlarının azaldılması istiqamətində atılacaq addımların mexanizmini özündə əks etdirir. Misir, Birləşmiş Ərəb Əmirliyi, Azərbaycan və Brazilyanın imzaladığı COP prezidentlərinin davamlılığı təşəbbüsü də kifayət qədər faydalı bir sənəddir. Birləşmiş Krallığın da qoşulduğu qlobal metan öhdəliyinə aid olan təşəbbüsü də xüsusi dəstəkləmək lazımdır. "Yaşıl maliyyə" istiqamətində atılan addımlar da təqdirəlayiqdir. Bu məsələ COP-un əsas agendasına daxil olan bir məsələdir. COP29-da maliyyə razılaşmasının əldə olunması ona görə önəmlidir ki, karbon və digər atmosfer üçün zərərli qazların dünyanı isitməsinin qarşısını almaq mümkün olsun - bu vəsait kasıb ölkələr üçün vacibdir, pul ayrılarsa, onlar istixana qazlarını azaltmaq imkanı əldə edə biləcəklər. COP29-da kasıb ölkələrə maliyyənin məbləği barədə razılıq əldə olunarsa, bu, Azərbaycan üçün önəmli bir həftə olacaq - ancaq təkcə Azərbaycan üçün deyil, həm də istiləşməkdə olan dünyanın xilasında mühüm bir addım ola bilər. COP29-un danışıqları, əsasən, inkişaf etmiş ölkələrdən maliyyə vəsaitinin əldə edilməsi və qazıntı yanacağının azaldılması üzərində qurulub".

**Şəymən Bayramova**

# Zakir Həsənov ordu qarşısında konkret tapşırıqlar qoydu

**Müdafiə naziri Zakir Həsənov qoşun xidmətinin təşkilinə, şəxsi heyətin döyüş hazırlığı və fərdi peşəkarlığına xüsusi diqqət yetirilməsi ilə bağlı aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.**



"Şərq" xəbər verir ki, bunu general-polkovnik Zakir Həsənov noyabrın 23-də Müdafiə Nazirliyində keçirilən xidməti müşavirədə deyib.

Qeyd edilib ki, qış mövsümü tədbirlərinin gücləndirilməsinin, xüsusilə dağlıq ərazilərdə, sərt iqlim şəraitində yerləşən bölmələrdə ərzaq, əşya, yanacaq, odun ehtiyatının normalara uyğun saxlanmasının, şəxsi heyətin sağlamlığına diqqət yetirilməsinin, mövsümi xəstəliklərdən qorunma və isti geyimlə təmin edilməsinin zəruriliyi bildirilib.

Müdafiə naziri Z.Həsənov döyüş növbətçiliyinin aparılması, eləcə də gündəlik xidməti fəaliyyət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin hər zaman yüksək səviyyədə saxlanılması barədə müvafiq göstərişlər verib.

# COP29 vaxtı enerji təminatı qüsursuz həyata keçirilib

**11-22 noyabr tarixlərində keçirilən COP29 tədbirinin və ümumilikdə Bakı şəhəri başda olmaqla ölkənin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi üçün "AzərEnerji" ASC üzərinə düşən bütün öhdəlikləri yerinə yetirib.**



Müvafiq dövlət qurumları ilə birgə 24 saat fasiləsiz olaraq strateji əhəmiyyətli yüksəkgərginlikli ötürmə xətləri, qovşaq yarımstansiyaları, o cümlədən istehsal mənbəyi olan elektrik stansiyalarının fiziki təhlükəsizliyi tam təmin edilib və texniki personal, xüsusi təyinatlı briqada və səyyar diaqnostika avadanlıqları gecə-gündüz iş başında olub.

Eyni zamanda paytaxt və ətraf ərazilərdə yerləşən 37 qovşaq yarımstansiyası, 129 ötürmə xətti və 6 elektrik stansiyası daim təftiş olunub. SCADA sistemi başda olmaqla, bütün enerjisistemin proqram təminatı və rəqəmsal idarəetməsi üçün kiber təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə həyata keçirilib. Nəticədə, tədbir müddətində baş verə biləcək təhlükələr anında aradan qaldırılıb və heç bir qəza açılması yaşanmayıb.

Paralel olaraq "AzərEnerji" COP29 tədbirində yaxından təmsil olunub. Belə ki, "mavi zona"da "AzərEnerji" rəhbərliyi müxtəlif tədbirlərdə iştirak edib. "Yaşıl zona"da isə "AzərEnerji" tərəfindən gələcəyin enerji sistemi, karbon sertfikatı, "yaşıl enerji" zonası, dekarbonizasiya, elektroenergetikanın modernizasiyası, data analitika, "yaşıl enerji" xabı və başqa mövzularda dünyanın aparıcı enerji şirkətlərinin iştirakıyla ümumilikdə 18 tədbir, memorandum imzalanması, təqdimat və görüşlər keçirilib.

COP29 tədbiri müddətində "AzərEnerji" ilə "Azərişıq" ASC-lərin "yaşıl zona"da yerləşən pavilyonunu 10 minədək qonaq ziyarət edib ki, onların arasında nüfuzlu şəxslər, xarici qonaqlar üstünlük təşkil edib.

**İsmayıl**



# Rusiya nüvə silahının tətbiqindən hələki çəkinir

## Ukrayna döyüş qabiliyyətini təkmilləşdirməyə və özünü uzunmüddətli perspektiv üçün dayanıqlı olmağa hazırlayır

**Rusların Dneprə atdığı "Oreşnik" raketi eksperimentaldır, onların sayı məhduddur. Bu sözləri Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəhbəri Kirill Budanov deyib. Onun sözlərinə görə, "Oreşnik" tədqiqat işinin adıdır, yəni sadəcə koddur:**

"Sistemin özü isə "Kedr" adlanır. Bu, eksperimental sistemdir, orta mənzilli ballistik raket və nüvə silahı daşıyıcısıdır. Ondan nüvə başlığı olmadan istifadə etmələri isə rusların tamamilə ağıllarını itirdiyini təsdiqləyir". Baş Kəşfiyyat İdarəsinin nümayəndəsi Vadim Skibitski isə bildirib ki, seriya istehsalından söhbət getmir, çünki bunun üçün 10 döyüş sınağı keçirilməlidir: "Əgər bu, tədqiqat-döyüş sınağı üçündürsə, demək, Rusiyada bu raketdən ən azı 10-u var". Qeyd edək ki, Rusiya 21 noyabrda "Oreşnik" raketi ilə Dneprə zərbə endirib. CNN nəşri də yazıb ki, Rusiyanın Dneprdə "Oreşnik" ballistik raketindən istifadə etməsi Ukraynada müharibənin son eskalasiyasıdır. Nəşr sözügedən ballistik raketdən istifadəni Moskvanın Qərblə münaqişəsində həlledici və potensial təhlükəli məqam hesab edib. Bildirilir ki, soyuq müharibədən bu yana heç vaxt bu cür silahdan düşməni vurmaq üçün istifadə edilməyib. Amerikalı alim, nüvə sahəsi üzrə mütəxəssis Hans Kristensen bildirib ki, ilk dəfədir "Oreşnik" kimi raketdən döyüşdə istifadə edilir. O, ən yaxşı hava hücumundan müdafiə sisteminin belə bu raketlərin qarşısını almaqda aciz olduğunu vurğulayıb: "Eyni zamanda dünya getdikcə bu tip raketlərin sınaqdan keçirilməsindən danışır - xüsusən də Hindistan, Çin, Şimali Koreya, Pakistan və hətta Böyük Britaniya. Ekspertlər qeyd edirlər ki, bir sıra ölkələrin arsenalında döyüş başlıqlarının sayının artırılması böhran vəziyyətlərində sabitliyi kəskin şəkildə azaldacaq".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Ukrayna ağır situasiyalarla üzləşsə də, öz döyüş qabiliyyətini təkmilləşdirməyə və özünü uzunmüddətli perspektiv üçün dayanıqlı olmağa hazırlayır. Ekspertin sözlərinə görə, Ukrayna Prezidenti Volodimir Zelenskinin Ali Radaya təqdim etdiyi 10 bənddən ibarət "Daxili dayanıqlılıq planı" Kiyevin müharibə fonunda strateji məqsədlərini müəyyən edir:** "Ukrayna 2025-ci il üçün müdafiə və təhlükəsizlik büdcəsini təxminən 54 milyard dollar olaraq təsdiqləyib. Bununla belə Ukrayna üçün problematik vəziyyəti həll etmək çətindir. Ona görə ki, Rusiya qoşunlarını cəbhə xəttinin Ukraynanın şərqində genişləndirir. Hərçənd, Ukrayna qoşunları Pokrovsk istiqamətində Rusiyanın əməliyyat motivlərini qismən dəyişməyə nail olub. Lakin Rusiyanın əhəmiyyətli irəliləyişlərinə nisbətdə bu, çox kiçik damcıdır. Ukraynanın canlı qüvvə çatışmazlıqları onun əməliyyatlarına mənfi təsirlər göstərir. Aviasiya və artilleriya zərbələrindən sonra müdafiə xətti qura biləcək şəxsi heyət qıtdır. Ukrayna NATO üzvü olmadığına görə, Rusiyanın Ukrayna ilə bağlı qırmızı xətlər barədə hekayələri NATO-nu çəkindirir".

**Analitik vurğulayıb ki, Ukraynanın Rusiya ərazilərinə uzaq mənzilli raketlərlə zərbələr endirməsi Kiyevin müdafiə qabiliyyətini əhəmiyyətli şəkildə artırmayacaq:** "Lakin Moskva hərbi hədəflərə endirilən zərbələrin ağırlığını Ukrayna cəbhəsində hiss edəcək. Ukraynanın raket zərbələri Kurskda və Rusiyanın Ukrayna ilə sərhəd ərazilərində sabit donmuş cəbhə trayektoriyası yaratmayacaq. Çünki Ukraynanın quru qoşunlarında hücum və möhkəmlənmək, xüsusilə Rusiya ərazilərində bunu etmək üçün taqəti yoxdur. Rusiya Ukrayna cəbhəsindən qoşunları dislokasiya etməyə tələsməyək. Onsuz da raket zərbələrindən müdafiə üçün heç canlı qüvvəyə ehtiyac yoxdur. Bununla belə, Rusiyanın hava hücumundan müdafiə sistemlərinin paylanılması üzrə məhdudiyyətlər ola bilər ki, bu da Ukraynanın raket zərbələrini intensivləşdirmək qabiliyyətini artıra biləcək faktordur. Rusiya Nüvə Doktrinasını yeniləsə də, bu, Rusiyanın cari situasiyaya nisbətdə nüvə silahından istifadə təhlükəsində kəskin, əsaslı dəyişikliyi ifadə etmir.

Sadəcə olaraq Rusiya özünə qarşı Ukraynadan atılan raketləri Kremlin nüvə silahından istifadə edə biləcəyi şərtlər kimi müəyyən edən tezisləri inkişaf etdirir. Qitələrarası ballistik raket bu məsələdə ilkin qorxutma aktıdır. Ancaq Moskva nüvə silahının tətbiqindən çəkinir".

**İsmayıl**

# İlin sonuna qədər sülh sazişinin imzalanması mümkündür

## Paşinyan hökuməti dərk edir ki, cəsarətli mövqe tutmadan sülhə nail olmaq qeyri-mümkün olacaq



**Ermənistanın Baş naziri Nikol Paşinyan bəyan edib ki, öz tərəfindən Azərbaycanla sazişin ilin sonunadək imzalanması üçün hər şeyi edəcək. Onun sözlərinə görə, danışıqlar prosesində müəyyən müsbət irəliləyişlər var:**

"Əgər biz həqiqi sülhə nail olsaq, sülh müqaviləsi imzalasaq, Ermənistan qarşılıqlı prinsip əsasında Azərbaycana qarşı beynəlxalq iddialardan imtina etməyə hazırdır". Baş nazir onu da əlavə edib ki, Ermənistan Azərbaycana Avropa İttifaqının mülki missiyasının delimitasiya olunacaq ərazidə fəaliyyət göstərməyəcəyini təklif edib.

**"Alyans" Strateji Araşdırmalar Mərkəzinin sədri Abutalıb Səmədov "Şərq"ə açıqlamasında deyib ki, sülh sazişi üzərində fasiləsiz iş gedir. Siyasi şərhçiyə görə, Paşinyanın söylədiyi fikirlər bir daha göstərir ki, prosesin qarşısında əsasən məhz Ermənistan olub:**

"Ermənistanın konstruktiv mövqe tutması prosesin irəliləməsinə imkan verir. Çox təəssüf ki, Azərbaycanın haqlı tələblərini uzun müddət Ermənistan nəzərə almaq istəmədi. Əksər hallarda ictimai rəydən çəkinən İrəvan hökuməti düzgün saydığı addımları belə atmağa cəsarət etmədi. Görünür, artıq Paşinyan hökuməti dərk edir ki, cəsarətli mövqe tutmadan, yeri gələndə ictimai rəyin ziddinə getmədən sülhə nail olmaq qeyri-mümkün olacaq. Bundan da ən çox itirən Ermənistan olacaq. Paşinyanın "ilin sonunadək sülh müqaviləsinin imzalanması üçün əlimdən gələni edəcəm" sözü o deməkdir ki, Ermənistan sülh sazişinin imzalanmasını ləngitmək istiqamətindəki fəaliyyətindən imtina etmək fikrindədir. Hesab edirəm ki, bu cür davranış sülh sazişinin ilin sonuna kimi imzalanmasına imkan verə bilər. 30 ildən artıq davam edən düşmənçiliyə son qoyula bilər".

**Ekspertin qənaətincə, sülh sazişi imzalanarsa, dövlətlərimiz arasında diplomatik münasibətlər yaranarsa, normal qonşuluq münasibətləri üçün addımlar atıla bilər:** "Azərbaycan Prezidenti bunu dəfələrlə Paşinyanın diqqətinə çatdırıb. Normal qonşu olmağı öyrənmək lazımdır. Düzdür, normal qonşuluq ermənilər üçün asan olmayacaq. Çünki daim qonşularla düşmənçilik siyasəti yeridiblər, düşmənçilik təbliğatı aparılıb. Nəhayət bunun zərərli olduğunu dərk edən lider ortaya çıxıb. Düşünürəm ki, sülh sazişi imzalanandan sonra bir-birinin əleyhinə məhkəmələrdə iddialar qaldırmağın hər iki tərəfə zərərli olduğu bir daha aydın olacaq. Ola bilsin, o zaman müəyyən iddialardan imtina etməyə zəmin formalaşacaq. Azərbaycan hansı iddialardan imtina edə bilər? 30 ildə bizə vurulan və məbləği 100 milyard dollarlarla olan ziyandan, təzminat tələbindən imtina mümkün olacaqmı? Bunu gələcəkdə baş verən hadisələr və Azərbaycan hakimiyyətinin sərgiləyəcəyi mövqe göstərəcək. Əsas odur ki, Ermənistan qeyri-konstruktiv mövqe tutmaqdan imtina etmək qərarına gəlib və ilin sonuna kimi sülh sazişinin imzalanmasına nail olmaq istəyini bəyan edib. Çox güman ki, bu istəyi reallaşdırmaq mümkün olacaq".

**İsmayıl Qocayev**

# COP29 təhsil sisteminə də təsir göstərəcək

## 2030-cu ilə qədər yaşıl ixtisaslar üzrə ali və peşə təhsili alanların sayı ən azı 50 faiz artacaq

**Azərbaycanda COP29 çərçivəsində iqlim dəyişikliyi, dayanıqlı inkişaf və "yaşıl" iqtisadiyyatın inkişafı istiqamətində keçirilən tədbirlər yalnız ekoloji deyil, həm də sosial və iqtisadi sahələrə əhatəli təsirlər göstərib. Təhsil sistemi bu proseslərin mərkəzində dayanır və müxtəlif pillələrdə ciddi yeniliklər və islahatlar üçün zəmin yaradılıb.**




*COP29-un Azərbaycanda keçirilməsi, təhsil sisteminə təsirləri, perspektivlər və gələcək gözləntilərlə bağlı fikirlərini "Şərq"lə bölüşən Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədov deyib ki, COP29 çərçivəsində məktəbəqədər təhsil müəssisələrində ekoloji təhsil xüsusi diqqət mərkəzinə çevrilib. İqlim dəyişikliyi ilə bağlı erkən yaşlarda maarifləndirmənin uşaqlarda ekoloji düşüncə tərzinin formalaşmasına xidmət etdiyini xatırladan ekspert deyib ki, ümumi təhsildə ekoloji savadlılıq üzrə tədris planlarında ciddi dəyişikliklər baş verib:* " Azərbaycan məktəblərində ekoloji layihələrin, həyətyanı bağçaların və "yaşıl laboratoriyaların" yaradılması təşviq edilib.

Statistikaya əsasən, Bakı və Sumqayıt şəhərlərində yerləşən 30-a yaxın orta məktəbdə şagirdlərin iştirakı ilə ekoloji seminarlar keçirilmiş, iqlim dəyişikliyi ilə bağlı yeni tədris vəsaitləri təqdim olunub. Müasir texnologiyalardan istifadə edərək "yaşıl" mövzuların oyunlar və layihələr vasitəsilə tədrisi səmərəliliyi artırıb.

Məsələn, 5-11-ci siniflər üçün tədris olunan biologiya və coğrafiya dərsliklərinə "İqlim dəyişikliklərinin sosial-iqtisadi təsirləri" adlı bölmə əlavə olunub. Təhsil Nazirliyi tərəfindən təsdiq edilən bu yeniliklər şagirdlərə iqlim dəyişikliyinin qlobal və lokal təsirlərini dərindən öyrənmək imkanı verir.

**K.Əsədovun sözlərinə görə, COP29-un ən ciddi təsir göstərdiyi sahələrdən biri məhz orta ixtisas və peşə təhsilidir. Onun sözlərinə görə, təhsilin bu pilləsində "Yaşıl texnologiyalar", "ekoloji menecment" və "bərpa olunan enerji mənbələri" üzrə yeni ixtisaslar təqdim edilib:** " Bu, əmək bazarında "yaşıl" sahələrə olan tələbatı qarşılamq üçün önəmli addımdır. Onu da deyim ki, peşə təhsili müəssisələrində "yaşıl" peşələr üzrə tələbə sayı son bir il ərzində 25 faiz artıb.

2023-cü ildə 8000-dən çox tələbə bərpa olunan enerji və ekoloji təmiz texnologiyalar üzrə təlimlərdə iştirak edib.

COP29 çərçivəsində keçirilən tədbirlərdə vurğulandı ki, Azərbaycan regionlarında fəaliyyət göstərən peşə təhsili müəssisələri xüsusən kənd təsərrüfatı və ekoloji turizm istiqamətində daha çox mütəxəssis hazırlamalıdır. Dünya Bankının hesabatına görə, "yaşıl" iqtisadiyyat üzrə peşəkar kadr hazırlığı Azərbaycanın qeyri-neft sektorunun gücləndirilməsinə təkan verəcəkdir".

COP29-un ali təhsil sahəsinə təsirinə gəldikdə isə Mərkəz direktoru bildirib ki, universitetlərdə iqlim dəyişikliyi ilə bağlı tədqiqat mərkəzləri və yeni ixtisas proqramları yaradılıb: "Azərbaycan Dövlət Neft və Sənaye Universiteti "Bərpa olunan enerji texnologiyaları" və "İqlim dəyişikliklərinin sosial təsirləri" üzrə magistratura proqramlarına start verib.

Bundan əlavə, UNEC (Azərbaycan Dövlət İqtisad Universiteti) dayanıqlı iqtisadiyyat mövzularında xüsusi fənləri tədris etməyə başlayıb. Universitetlərarası əməkdaşlıq da artırılıb. ADA Universiteti və BP şirkəti arasında imzalanan memorandum çərçivəsində "yaşıl biznes modelləri" üzrə tədqiqat layihələri həyata keçirilir.

Qeyd etmək istərdim ki, beynəlxalq səviyyədə, xüsusən də Skandinaviya ölkələrinin ali təhsil sistemində iqlim dəyişikliyi ilə bağlı fənlər və ixtisaslar geniş yayılıb. Azərbaycan universitetlərinin bu modeli tətbiq etməsi beynəlxalq əməkdaşlıq perspektivlərini də artırır. Məsələn, Norveçdə hər bir universitetdə iqlim dəyişikliyi ilə bağlı 5-dən çox ixtisas proqramı mövcuddur. COP29-nin təcrübəsi bu yanaşmanın Azərbaycanda genişlənməsi üçün baza rolunu oynayır.

Bilirsiniz ki, Azərbaycanın əmək bazarı dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat prinsiplərinə uyğun dəyişir. COP29 çərçivəsində "yaşıl iş yerləri" konsepsiyası genişləndirilmiş və yeni iş imkanları yaradılıb. 2024-cü ildə bərpa olunan enerji sektoru üzrə 2000-dən çox yeni iş yeri açılacağı gözlənilir. Dünya Bankının hesabatında qeyd olunur ki, Azərbaycanın "yaşıl iqtisadiyyat" sahəsində potensialı illik 2 milyard dollar əlavə gəlir gətirə bilər.

Hesab edirəm ki, COP29-un təsiri uzunmüddətli perspektivdə təhsil və əmək bazarında yeni tendensiyaların yaranmasına səbəb olacaq. 2030-cu ilə qədər yaşıl ixtisaslar üzrə ali və peşə təhsili alanların sayı ən azı 50 faiz artacaq.

Təhsildə ekoloji layihələr və texnologiyaların tətbiqi genişlənəcək və Azərbaycanın qeyri-neft sektorunda yeni innovativ iş yerləri yaranacaq.

İqtisadiyyatın "yaşıl" transformasiyası Azərbaycan təhsilinə və cəmiyyətinə daha sabit və dayanıqlı bir gələcək təmin etmək üçün vacib təməldir və COP29-un təsirləri də bunun başlanğıcıdır".

**Şəymən**

**Son günlər Ermənistan hökumətindəki istefalar rezonans doğurub. Məlum olduğu kimi, Baş nazir Nikol Paşinyan hökumətin mühüm postlarında çalışan rəsmiləri, o cümlədən, güc strukturlarının rəhbərlərini istefaya göndərib.**



İstefa verənlər arasında Ermənistan daxili işlər naziri, İstintaq Komitəsinin rəhbəri, Korrupsiyaya qarşı Mübarizə Komitəsinin rəhbəri və Ermənistan Ali Məhkəmə Şurasının rəhbəri də var. Bundan əlavə, parlamentin hakim "Vətəndaş Sazişi" partiyasından olan deputatlar Ovik Ağazaryan və Narek Zeynalyan mandatlarını təhvil verməyə hazırlaşırlar. Ehtimallara görə, kadr dəyişiklikləri Paşinyanın bəzi rəsmilərlə "sərt söhbətindən" sonra baş verib.

# Paşinyan Rusiya ilə hesablaşmaq məcburiyyətində qalacaq

## Baş nazir təkbaşına Qərbin maraqlarını regionda müdafiə edə biləcəyindən əmin deyil

**Politoloq Turab Rzayev bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan son dövrlərdə Rusiya ilə bağlı mövqelərini yaxınlaşdırmağa çalışır və baş nazirin Qərbə inteqrasiyaya çox da inanmadığı ortaya çıxır. Ekspertə görə, bu məqamın Paşinyanın komandasında narazılıqların yaranmasına səbəb ola biləcəyi istisna edilmir:** "Gürcüstanda keçirilən seçkilərin nəticələri Rusiyanın regionda güclənməsinin anonsunu verdi. Paşinyan təkbaşına Qərbin maraqlarını regionda müdafiə edə biləcəyindən əmin deyil. O bilir ki, Rusiyanın təsiri ilə hesablaşmaq məcburiyyətində qalacaq. Görünür, Paşinyanın komandasındakı Qərbpərəstlər, heç bir halda Rusiya ilə əməkdaşlığa yaxın durmayanlar özləri istefa ərizəsi yazırlar. Bununla, həm də Paşinyan hökuməti üzərində təzyiq formalaşdırırlar ki, hökumət Qərbpərəst mövqedən əl çəkməsin, Moskva ilə yaxınlaşmasın".

**Analitik deyib ki, Paşinyan özü küçə etirazları ilə hakimiyyətə gəlib və komandasında köhnə kadrlar çoxdur:** "Paşinyanın vahid komandası olmayıb. Daha çox keçmiş liberal dəstədən olan Levon Ter-Petrosyanın komandasından istifadə edib. Yəni köhnə kadrlarla ölkəni idarə etməyə davam edib. Açıq ifadə edilməsə də, hökumətdə Rusiyaya bağlı kadrlar çoxdur. Paşinyanın güc strukturlarını vaxtaşırı dəyişməsi də bununla bağlıdır. Görünən odur ki, Paşinyan yeni siyasi düzənə uyğun idarəetmə və kadrlar formalaşdırmağa çalışır".

**İsmayıl**

# Çavuşoğlu Azərbaycana gəlir

## O, Qərbi Azərbaycan İcmasının beynəlxalq tədbirində iştirak edəcək

**Türkiyənin sabiq xarici işlər naziri, NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu Azərbaycana səfər edəcək.**



Modern.az xəbər verir ki, o, 5-6 dekabr tarixlərində Qərbi Azərbaycan İcmasının beynəlxalq tədbirində iştirak edəcək.

Məlumatı Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli təsdiqləyib. O qeyd edib ki, tədbirdə 51 ölkədən 700 nümayəndə heyətinin iştirakı gözlənilir.

"Burada Türkiyədən də Mövlud Çavuşoğlu, Türkiyə Böyük Millət Məclisinin deputatları Şamil Ayrım, Cantürk Alagöz və digərləri iştirak edəcək. Böyük nümayəndə heyətinin gəlişi gözlənilir. Burada Qərbi Azərbaycana qayıdış məsələsi müzakirə obyekti olacaq. Tədbir hər il dekabrın 5-də keçirilir. Çünki 5 dekabr bizim Qərbi Azərbaycandan sonuncu dəfə deportasiya edildiyimiz tarixdir", - Əziz Ələkbərli bildirib.




# COP29 təsdiqlədi

## Azərbaycan Cənubi Qafqazın ən təhlükəsiz ölkəsidir

**Azərbaycan davamlı uğurları, ev sahibliyi etdiyi beynəlxalq tədbirlərlə hər zaman dünyanın diqqətində olub. Bu günlərdə Azərbaycanı beynəlxalq aləmin diqqətində saxlayan, dünyanı Bakıya toplayan məhz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-dur. Tədbirin hər günü Azərbaycanın beynəlxalq nüfuzunu artıran yeni mühüm hadisələrlə yadda qaldı.**

Prezident İlham Əliyevin COP29-da iştirak etmək üçün ölkəmizdə olan müxtəlif ölkələrin prezidentləri, vitse-prezidentləri, baş nazirləri, beynəlxalq qurumların rəhbərləri ilə ayrı-ayrılıqda görüşləri münasibətlərimizin inkişafında yeni səhifənin açıldığının göstəricisidir. Prezident İlham Əliyev COP29-un Liderlər Sammitində, eləcə də inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxışlarında hazırkı dövrün çağırışlarını yerinə yetirmək üçün əsas vəzifələrin nədən ibarət olduğunu açıqladı. Bu gün Azərbaycanın söz sahibliyi, hər bir sahədə zəngin təcrübəyə malik olması təqdir edilir. Ölkəmiz COP29-a tamamilə fərqli ovqatda ev sahibliyi edir. Tarixi Zəfəri, suverenliyini tam bərpa etməsi ilə qürurlanan qalib Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımları atmışdı. Tədbir iştirakçılarının hər biri Azərbaycanın belə mötəbər tədbirə ev sahibliyini, onun yüksək səviyyədə təşkilini alqışladılar. Prezident İlham Əliyevin liderliyi, səyləri nəticəsində uğurlu COP-a imza atılacağını bildirdilər. Təbii ki, hər bir mühüm addım əvvəlki addımların məntiqi davamıdır. COP29-a gedən yola qısa nəzər salmaqla düşünülmüş siyasətin uğurların açarı olduğunu böyük inamla qeyd edə bilərik. Prezident İlham Əliyevin COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar keçirilən müşavirədə söylədiyi "COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik. Bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq" fikirləri bu gün real həyatda təsdiqini tapmaqdadır. Dünya hazırda bu reallıqların şahididir. Arxada qalan hər gün COP29-la bağlı tariximizə mühüm uğur səhifələrini yazdı. Azərbaycan sözünün həqiqi mənasında iqtisadi, siyasi, humanitar, diplomatik mərkəz olduğunu təsdiqlədi. Liderlərin Sammitində, eyni zamanda, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində səsləndirilən fikirlərə diqqət yetirsək, Azərbaycana, Prezident İlham Əliyevə böyük etimadın, inamın şahidi olarıq. Dünyanın diqqətlə izlədiyi bu tədbirə 196 ölkədən 72 min iştirakçı qatıldı. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var idi. COP29 həm də son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavab oldu. Dövlət başçısı bir daha bu spekulyasiyaları alt-üst etdi və Azərbaycanın müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini sübuta yetirdi. Prezident bu təşəbbüsü ilə Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. COP29 Azərbaycanın növbəti siyasi-diplomatik uğuru hesab olunur. Bu, eyni zamanda dünya ölkələrinin Azərbaycana növbəti dəfə böyük etimad və ehtiramın bariz nümunəsidir.

BMT-nin belə mötəbər, qlobal əhəmiyyətli tədbirinin Bakıda keçirilməsi də təsadüfi deyildi. Bu, beynəlxalq aləmdə Azərbaycana hörmətin, onun qlobal əhəmiyyətli müxtəlif energetika, nəqliyyat və başqa layihələrdə oynadığı müsbət rola verilən dəyərin göstəricisidir. COP29 bir daha sübut etdi ki, Azərbaycan dünyada böyük nüfuza malik, beynəlxalq ictimaiyyətin gözündə etibar, hörmət qazanmış dövlətdir. Rəsmi Bakı sessiyanı uğurlu təşkil etməklə ona etimad edənlərin də ümidlərini doğrultmuş oldu. Bu, çoxlu sayda dövlət və hökumət başçılarının, onminlərlə qonağın tədbirdə iştirakında və təşkilatçıya ünvanladıqları xoş sözlərdə də əksini tapdı. Bununla da COP29 ən çox dövlət və hökumət başçılarının iştirak etdiyi tədbirlərdən biri oldu. Sessiyanın sonrakı günlərində ümumən 76 min nəfərin qeydiyyatdan keçməsi dünya iqlim konfranslarının tarixində yeni rekord sayılır. Azərbaycan bu qlobal toplantını təşkil etməklə daha bir sınaqdan uğurla çıxıb. Bu mötəbərlə həm də bir daha sübut olundu ki, Azərbaycan Cənubi Qafqazın ən təhlükəsiz ölkəsidir. COP29 çərçivəsində ölkəmizə səfər, paytaxt Bakıda gəzmiş və günlərlə qalmış qonaqlar da bəyan etdilər ki, dünyanın istənilən ölkəsinin vətəndaşı rahat və təhlükəsiz şəkildə Azərbaycana səfər edə bilərlər. Tədbir iştirakçılarının hamısı Azərbaycanda çox isti qarşılanmadan, yüksək qonaqpərvərlikdən və təhlükəsizliyin təmin olunmasından məmnunluq ifadə etdilər. COP29 tədbiri zamanı bir dəfə də olsun narahatedici, xoşagəlməz hadisənin baş verməməsi də Azərbaycanın uğurlu ev sahibliyinin təzahürü idi. Bir sözlə, Azərbaycan COP29 tədbirini ən yüksək təşkilatçılıq bacarığı ilə reallaşdırdı.

**Millət vəkili Naqif Həmzəyev də "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan COP29 tədbirinə layiqincə ev sahibliyi etdi. Deputat vurğulayıb ki, dünya liderlərinin Azərbaycana təşrif buyurması, iqlim dəyişikliklərinə qarşı birgə mübarizəni təşkil etmək üçün siyasətçilərin, hökumət rəhbərlərinin, mütəxəssislərin, dini liderlərin ölkəmizdə çoxsaylı tədbirlərə, görüşlərə qatılması COP29 tədbirinin əhəmiyyətini və önəmini daha da artırdı:** "Birləşmiş Millətlər Təşkilatının birbaşa tədbiri hesab edilən COP29 çərçivəsində gələcəyimiz üçün vacib sayılan qlobal istiləşmənin qarşısını almaq üçün maliyyə axtarışlarının həyata keçirilməsi, maliyyə öhdəliklərinin götürülməsi daim yadda qalacaq. Budəfəki COP-un əsas önəmi və öhdəliyi ondan ibarət idi ki, məhz qəbul edilmiş qərarların həyata keçirilməsi üçün maliyyə axtarışları reallaşmış olsun. Ölkələr, dövlətlər öz öhdəliklərini yeniləsinlər və bu problemlərin həllinə dair səylər daha da gücləndirilsin. Azərbaycan yaxın və uzaq bütün hədəflərin qarşılanması üçün lazımi sənədlərin hazırlanmasını uğurla həyata keçirdi. Dünya dövlətlərinin də bu proseslərə ciddi yanaşması və töhfə verməsi artıq qaçılmazdır. Ümid edirik ki, qəbul edilmiş sənədlər və götürülmüş öhdəliklər yalnız kağız üzərində qalmayacaq. Gələcək illərdə biz məhz Bakıda qəbul edilmiş qərarların həllinə dair konkret nəticələri görə biləcəyik".

**Parlamentari qeyd edib ki, Azərbaycana qarşı qarayaxma kampaniyası həyata keçirmək istəyən qüvvələr, COP29-u siyasiləşdirmək istəyən dairələr öz istəklərinə çatmadılar:** "Azərbaycan qarayaxma kampaniyalarının qarşısını uğurla ala bildi. Hökumət üzvləri, vətəndaş cəmiyyəti, millət vəkilləri, siyasətçilər, ətraf mühitin qorunması ilə bağlı mütəxəssislər proseslərdə aktiv iştirak etdilər. Cənab Prezident İlham Əliyevin çıxışlarında və keçirdiyi görüşlərə toxunduğu məsələlər, qaldırdığı məsələlər də təzyiqlərin, xoşagəlməz hadisələrin qarşısını uğurla aldı. Çağırışlar özünü "demokrat", "ətraf mühiti qoruyan", "liberal siyasət yeridən" kimi göstərilən dövlətlərin əsl iç üzünü açıb ortaya qoydu. Dünya dövlətlərini ikiüzlü siyasət yeridən hökumətlərə, ətraf mühiti çirkləndirənlərə qarşı mübarizəyə səslədi".

**N.Həmzəyev bəyan edib ki, Azərbaycan öz fəaliyyətini bundan sonra da davam etdirəcək**: "Növbəti il baş tutacaq tədbirlərin hazırlıq mərhələlərinə də Azərbaycan öz töhfəsini verəcək. Qəbul edilmiş sənədlərin icrasına dair Azərbaycanın yaxından iştirakı davam etdiriləcək. Yaşıl enerjiyə keçidin təmin edilməsi və s. məsələlərlə bağlı ölkəmizin səyləri, təşəbbüsləri diqqətə alınacaq. Azərbaycanın əldə etdiyi təcrübə region dövlətləri tərəfindən də öyrəniləcək və yaşıl enerjiyə təşviq artacaq. Azərbaycan bu ağır və məsuliyyətli işin öhdəsindən layiqincə gəldi. Bakıya səfər edən on minlərlə əcnəbi vətəndaş, dövlət və hökumət başçıları Azərbaycanın necə gözəl, təhlükəsiz ölkə olduğunu öz gözləri ilə gördülər. Paytaxtımızda günlərlə rahat gəzdilər-dolaşdılar və şəhərin təmizliyi, səliqəsi, möhtəşəmliyi onları heyran buraxdı. Hamısı ölkəmizdən məmnunluqla ayrıldılar. Fürsətdən istifadə edib cənab Prezident İlham Əliyevi və COP29-un Təşkilat Komitəsini, bu işdə əməyi olan bütün şəxsləri ürəkdən təbrik edirəm. Azərbaycan öz hədəflərinə doğru inamla addımlayacaq".

**İsmayıl Qocayev**

# Biz regionda dayanıqlı sülh istəyirik

## Azərbaycan Ermənistanı yeni müharibə niyyətlərindən çəkindirmə, düşməni neytrallaşdırma siyasətini həyata keçirir

**Bildiyimiz kimi, 2025-ci ilin dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərclərinin artırılması nəzərdə tutulur. Dövlət büdcəsinin layihəsində növbəti il üçün müdafiə və təhlükəsizlik xərclərinin ümumilikdə 8 milyard 396 milyon manat olacağı göstərilib. Beləliklə, Ermənistanda silahlanmanın miqyasını nəzərə alaraq Prezident İlham Əliyevin göstərişinə əsasən müdafiə və təhlükəsizlik xərcləri 1 milyard 738 milyon manat artırılıb.**



Ekspertlərə görə, Azərbaycanın bu addımı atması Ermənistanın və onun havadarlarının regionda hərbi eskalasiyanı artıran revanşist, militarist planlarından irəli gəlir. Bir tərəfdən "sülh" demaqogiyasını davam etdirən Ermənistan hakimiyyəti, digər tərəfdən isə genişmiqyaslı silahlanma, ordu quruculuğu siyasətini həyata keçirir. Fransa, Avropa İttifaqı (Aİ), ABŞ, İran, Kanada, Hindistan kimi havadarları Ermənistanı sülhə yox, revanşizmə hazırlayır.

**Azərbaycan Həmrəylik Komitəsinin sədri Əlisahib Hüseynov "Şərq"ə deyib ki, rəsmi Bakının İrəvanın silahlanma kursuna cavab tədbirləri müstəvisində 2025-ci ilin dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərclərini artırması təbii haldır. Ekspertə görə, Azərbaycan sadəcə olaraq bu addımı atmağa məcburdur:** "Bakı İrəvanın militarizasiya siyasətinə adekvat cavab verir. Biz Cənubi Qafqazda yeni qarşıdurmaların baş verməsində maraqlı olan qüvvələrin Ermənistanı silahlandırmasına və onu yeni müharibəyə hazırlaşdırmalarına reaksiya verməyə bilmərik. Azərbaycan öz müdafiə xərclərini artırmaqla Ermənistanı yeni müharibə niyyətlərindən çəkindirmə, düşməni neytrallaşdırma siyasətini həyata keçirir. Bu addım eyni zamanda, təhlükəsizliyimizin təmin olunmasına xidmət edir. Bu mənada Ermənistanın sürətlə silahlanması şər məqsədə - yeni hərbi eskalasiyaya xidmət edirsə, Azərbaycanın müdafiə xərclərini artırması isə sözügedən eskalasiya cəhdlərini dayandırmağa və regionda sabitliyi qoruyub saxlamağa xidmət edir. Dünya birliyi iki ölkənin silahlanma və müdafiə siyasətləri arasındakı bu ciddi fərqə xüsusilə diqqət yetirməlidir".

**Analitik diqqətə çatdırıb ki, Fransanın, Hindistanın və digər maraqlı qüvvələrin Ermənistanı regionun silah cəbbəxanasına çevirmək planları həmçinin BMT Təhlükəsizlik Şurasının (TŞ) da diqqətindən yayınmamalıdır:** "TŞ-nin daimi üzvlərindən biri olaraq Fransanın Ermənistana ən müasir silahları ötürərək, onu Azərbaycana qarşı üçüncü müharibəyə təhrik etmək cəhdlərinin qarşısı alınmalıdır. Fransa Ermənistanı silahlandırmaqla olduqca təhlükəli oyun oynayır. Dünya birliyi Fransanın Ermənistanı silahlandırmaq cəhdlərinə mane olmalıdır. Əks təqdirdə, Azərbaycanın öz təhlükəsizliyini təmin etmək üçün müdafiə xərclərinin artırmaqdan başqa bir yolu qalmır. Prezident İlham Əliyev bütün çıxışlarında, görüşlərində dəfələrlə qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb, artıq müharibə dövrü arxada qalıb, indi yeni dövr - quruculuq dövrü, postmünaqişə dövrü başlayıb və biz regionda dayanıqlı sülh istəyirik. Ancaq Ermənistan tərəfi silahlanma siyasətindən imtina etmək istəmirsə, biz müharibəyə hər an hazırıq".

**İsmayıl Qocayev**

# Zaman donub

## Pəhləvilərin İranda hakimiyyət yolu bağlıdır

**İranın devrilmiş şahının mühacirətdəki oğlu Rza Pəhləvi yenidən aktivləşib. O, ABŞ prezidenti seçilən Donald Trampı təbrik edib. Rza Pəhləvi təbrikində qeyd edib ki, D.Tramp ilk prezidentlik dönəmində nəinki Yaxın Şərqi, hətta Amerika xalqını terror, qeyri-sabitlik, xaosla təhdid edən İrana qarşı cəsarətlə İran xalqının yanında durub:**



Rza Pəhləvi hələ uzun illər, bəlkə də ömrünün sonuna qədər "tacsız şah" olaraq dəstəkçi axtarmağa davam edəcək

"İndi bu təhlükəni birdəfəlik bitirməklə tarix yazmaq və davamlı sülh mirası qoymaq imkanınız var. Bu missiyanız zamanı İran xalqı sizin ən yaxşı tərəfdaşınızdır". Qeyd edək ki, Rza Pəhləvi 1979-ci ildən Vaşinqtonda yaşayır. İran mühacirlərinin bir hissəsi onu "şah" adlandırır.

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, pəhləvilər ailəsi, ümumiyyətlə, hazırda İranda "arzuolunmaz ailə" statusunu daşıyır. Son illərdə isə rejimə qarşı yazıları, açıqlamaları və dəstəkçi axtarışı ilə diqqət çəkirlər:** "Pəhləvi ailəsi xüsusilə ABŞ siyasətçiləri, milyonçular və yəhudi lobbisi ilə sıx əlaqələrə malikdir. Hətta Rza Pəhləvi 2023-cü ildə Holokost qurbanlarının Beynəlxalq Anım Günündə İsrailə səfər etmiş, burada İsrailin kəşfiyyat və atom enerjisi naziri Gila Qamlielinlə görüşmüşdü. Şahın oğlunun aktivləşməsinin bir neçə səbəbi var. Bunlar İran-İsrail gərginliyinin artması, İran daxilində sosial-iqtisadi zəmində narazılıqların artması, İranın Ali rəhbəri Əli Xameneinin xəstə olması, varis məsələsinin gündəmə gəlməsi və rəsmi Tehranın nüvə silahı əldə etmək istəyidir. Rza Pəhləvi yaxşı bilir ki, Xamenei yaşlı və xəstədir. Yəni vəfat etməsi durumunda İran qarışacaq. Əslində, hazırda İran-İsrail münasibətlərində gərginliyin əvvəlki aylara nəzərən səngiməsinin digər səbəbi də budur. Təl-Əviv Xameneinin ehtimal ölümündən sonra İrana bütün gücü ilə təzyiq edəcək".

**T.Rzayev qeyd edib ki, Rza Pəhləvi vəziyyətdən istifadə edərək taxtı ələ keçirmək istəyir:** "Onun Trampı təbrik etməsi həm də dəstək gözləntisi ilə bağlıdır. Tramp emosional olsa da, belə bir macəraya çətin ki, getsin. Ümumiyyətlə, Pəhləvilərin İranda hakimiyyəti ələ keçirməsi real deyil. Çünki Qərb Pəhləvi hakimiyyəti dövründə nələrin olduğunu bir dəfə təcrübə edib. İkinci bir Pəhləviyə çətin ki, uran, neft və qaz ehtiyatları ilə zəngin İran etibar edilsin. Rza Pəhləvi hələ uzun illər, bəlkə də ömrünün sonuna qədər "tacsız şah" olaraq dəstəkçi axtarmağa davam edəcək. Nə İranın siyasi-dini elitası, nə də bu ölkədəki etnik azlıqlar, eləcə də azərbaycanlılar onu lider görmək istəyir. Böyük güclər üçün də Pəhləvilər ciddi mahiyyət daşımır".

**İsmayıl**

# 45 qadın ölüm növbəsindədir

## Əjdər Tağızadə: "Pezeşkianın gəlişindən sonra 450 nəfər edam edilib"





**İran məhkəməsi Təbrizdə yaşayan 21 yaşlı ictimai fəal Mirəkbər Hüseyni barədə 6 ay həbs qərarı çıxarıb.**

İnsan haqları fəallarının yaydığı məlumata görə, gənc fəal "hökumətə qarşı təbliğat" və "müxalif qrupa üzvlük"də günahlandırılıb.

Pezeşkian hakimiyyətə gəlməmişdən əvvəl bəzi ekspertlər siyasi həbslərin azalacağını düşünsə də, İranda tez-tez siyasi həbslərin şahidi oluruq.

**Mövzu ilə bağlı "Şərq"ə danışan "Güney Azərbaycan Demokratik Türk Birliyi" (GADTB) təşkilatının sədri Əjdər Tağızadə bildirib ki, İranda həm ictimai-siyasi, həm də iqtisadi vəziyyət olduqca gərgindir:**

"İqtisadi çətinliklər onsuz da çeşidli millətlərdən olan İran coğrafiyasında insanlar arasında fikir ayrılıqları yaradır. Oradakı rejim bu ayrılıqların qarşısını almaq üçün, böyük düşmən, yəni İsrail qarşısında onları birləşdirməyə çalışırdı. Lakin bu addımlar da özünü doğrultmadı. Bu səbəbdən Tehran rejimi özünün türk əsilli olmasını tez-tez səsləndirən birini, yəni Məsud Pezeşkianın prezident seçilməsinə göz yumaraq İrandakı digər millətlərə, xüsusilə də türklərə sizdən olan biri prezident seçildi mesajını verdi. Əhali ilk vaxtlar onun dövründə təzyiqlərin azalmasına inansa da, bir müddət sonra bu inam azaldı. Çünki hazırda hökumət rejimi ayaqda saxlamaq üçün sərt üsullara əl atır. İran məhkəməsinin Təbrizdə yaşayan 21 yaşlı ictimai fəal Mirəkbər Hüseyni barədə 6 ay həbs qərarı çıxarması da bunun sübutlarından biridir".

**Ekspert əlavə edib ki, Pezeşkianın gəlişindən sonra 450 nəfər edam edilib:** "İndi orada 45 qadın ölüm növbəsindədir. Əslində Pezeşkian dövründə ciddi dəyişikliklər gözləyənlər də reallıqdan bir qədər uzaq idi. Çünki İslam Respublikasında mühüm qərarları ali rəhbər verir. Prezidentin qəbul etdiyi qərarlar isə dini liderin təsdiqindən sonra icra olunur".

**Yusif Sultanoğlu**

# Razılaşma olmadan bina sökülmür

## Vətəndaşların kompensasiyası qanunla tənzimlənir

**Bakıda yeni yaşayış binaları tikiləcək.**

**Nizami rayonu, B.Çobanzadə, M.Gəncəvi və İ.Nəsimi küçələrinin kəsişməsində, 2532-ci məhəllədə "Orbita" MTK tərəfindən yeni yaşayış binaları tikiləcək.**



Bundan əlavə, Suraxanı rayonu Yeni Günəşli "D" yaşayış sahəsi, 27 saylı binanın şimal hissəsində yerləşən "Etibarlı" MTK tərəfindən daha bir neçə yaşayış binası tikiləcək.

Qeyd edək ki, tikinti layihələri təsdiqləndikdən sonra proses başlayacaq.

**Məsələ ilə bağlı "Şərq"ə danışan əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirib ki, yaşayış binalarının tikilməsi "Orbita" MTK-nın sərəncamı ilə həyata keçirilir:** "Sərəncamda nə kimi dəyişikliklərin olduğunu bilmirəm. Lakin indiki inşaat normativləri ilə o vaxtkılar eyni deyil. Tikinti şirkətinin orada yerləşən ikimərtəbəli binaların köçürülməsi ilə bağlı təcrübəsi var. Vətəndaşlara tikiləcək binalardan mənzil kimi kompensasiya təqdim edilib. Ola bilər ki, bəzi şəxslər kompensasiyanı mənzil əldə edərək razılaşmayıb. Bildiyimə görə, mənzillə razılaşmayanların bəziləri ilə qanuni qaydada pul qarşılığında alqı-satqı olub. Düşünürəm ki, proses bu qayda ilə davam edəcək. İlk növbədə vətəndaşların kompensasiyası qanunla tənzimlənir. Kompensasiya olmalıdır ki, vətəndaşlar öz mənzilləri ilə yeni tikilinin əvəzolunmasına və ya pul qarşılığında satılmasına razı olsunlar. Razı olmadıqları təqdirdə, qanunla mənzillərin sökülməsinə yol verilmir. Bildiyim qədəri ilə "ORBİTA" MTK ilə ciddi problemlər yaşanmayıb".

**Fidan Həmişəyeva**

# Əsas problem siyasi eqoizmdir

## Qərəzli Qərb Azərbaycanın dünya miqyaslı və BMT sistemində ən böyük tədbir olan COP29-a ev sahibliyi etməsini həzm edə bilmir




**COP29 öncəsi və tədbir zamanı bəzi Qərb ölkələri tərəfindən Azərbaycana qarşı iyrənc, qərəzli, açıq-aşkar düşmənçilik xarakteri daşıyan kampaniya aparıldı. Ümumulikdə ölkəmizə qarşı bütün bu kampaniya hibrid müharibənin ən eybəcər forması idi.**

Aydın görünür ki, qərəzli Qərb Azərbaycanın dünya miqyaslı və BMT sistemində ən böyük tədbir olan COP29-a ev sahibliyi etməsini həzm edə bilmir. Bu azmış kimi Qərb çirkin vasitələrlə ev sahibi və sədr ölkə kimi Azərbaycana təzyiq göstərərək iqlim maliyyələşməsi üzrə öhdəliklərindən qaçmağa çalışır. Bakıda aparılan müzakirələr də bunu bir daha göstərir. Dünya ictimaiyyəti, inkişaf etməkdə olan ölkələr Qərbdən 1 trilyon dollar vəsait gözlədiyi halda, Qərb yalnız 250 milyard dollarlıq vəsaitlə ortaya çıxdı. Özü də qəsdən bu rəqəmi tədbirin ən son günündə açıqladılar ki, əlavə müzakirələr üçün vaxt qalmasın. Reallıq odur ki, bütün dünyanı karbon qazı ilə zəhərləyən və qlobal iqlim fəlakətinə səbəb olan Qərb indi məsuliyyətini başqalarının üzərinə yıxmağa çalışır.

**Millət vəkili Tahir Mirkişili deyib ki, onsuz da COP29 çərçivəsində maliyyə məsələləri ilə bağlı danışıqların asan olacağını heç kim gözləmirdi. Artıq 28 ildir ki, bu danışıqlar gedir və prosesin ən çətin və mürəkkəb hissəsi məhz maliyyə tərəfidir. Deputatın sözlərinə görə, ümumiyyətlə dünyada ən çətin razılaşma mərhələsində olan məsələlərdən biri maliyyə ilə bağlıdır:**

"Digər məsələləri rahat şəkildə müzakirə etmək, razılığa gəlmək mümkündür. Amma iş maliyyə məsələlərinə gəldikdə dövlətlər konservativ, bir çox hallarda isə maraqlar çox sərt şəkildə önə çıxır. Bu baxımdan məhz Azərbaycanda keçirilən COP29-da maliyyə məsələlərinin müzakirəsi və maliyyənin razılaşdırılması ilə bağlı məsələ kifayət qədər mürəkkəb proses olmaqla yanaşı, həm də çox ümidlərin Azərbaycana yönəlməsinə səbəb olmuşdu. Təbii ki, Azərbaycan ilk dəfə idi ki, bu həcmdə tədbirə ev sahibliyi edirdi. İlk dəfədir ki, nəinki ev sahibliyi, hətta tədbirə prezidentlik edirik. İlk dəfədir ki, ölkəmiz dünyanı maraqlandıran problemin həllində birbaşa iştirak edir, öz həllimizi, köməyimizi təklif edirik. Azərbaycan müxtəlif qrupların bir yerə gətirilməsi, ümumi məqsədin tapılması yönündə də öz dəstəyini əsirgəmir. Hökumətimiz, QHT-lər müxtəlif tərəflər görüşərək mövqelərin yaxınlaşması yönündə Azərbaycanın baxışını ortaya qoyublar. Əslində maliyyədən başqa COP29 çərçivəsində ötən dövr ərzində kifayət qədər nəticələr də əldə olunub. Məsələn, dünyada metan qazı buraxan və təxminən Yer kürəsinin 50 faizdən çox ölkəsini çirkləndirən 30 dövlətin bəyanat verməsi və bunu 2030-cu ilədək 30 faiz azaldacaqlarını vurğulaması olduqca mühüm razılaşmadır. Eyni zamanda könüllü milli töhfələrdə dövlətlərin öhdəliklərini 2030-cu ildən 2050-ci ilədək çəkməsi də önəmli irəliləyişdir. Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında "yaşıl dəhlizin" tikintisi ilə bağlı əldə edilən anlaşma da əhəmiyyətlidir. Azərbaycan, İtaliya və Misir arasında əldə olunan Aralıq Dənizi hövzəsində 1 teravatlıq yaşıl enerjinin istehsalı ilə bağlı razılaşma da bu istiqamətdə olduqca mühüm nəticələrdir".

**Parlament üzvü vurğulayıb ki, bu prosesdə iki tərəf var - inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr:**

"Ümumi təhlükə bundan ibarətdir ki, artıq bütün dünya etiraf edir ki, 1.5 dərəcədən artıq Yer kürəsinin qızması fəlakətə səbəb ola bilər. Əgər biz heç nə etməsək, yaxın 10 ildə planetin qızınması təxminən 2.6 dərəcə ola bilər. Buna imkan verməmək üçün inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə maliyyə yardımını artırmalıdır. Sonuncu razılaşma COP28-də olmuşdu və ildə 100 milyard dollarlıq maliyyə yardımı ayrılması qərara alınmışdı. Hazırda inkişaf etməkdə olan ölkələrin tələbi təxminən 1.5 trilyon dollardır. Amma inkişaf etmiş ölkələrin son bəyanatda da göstərildiyi kimi təklif etdikləri məbləğ 250 milyard dollara yaxındır. İnkişaf etməkdə olan ölkələr buna sərt şəkildə qarşı çıxılar. Hər iki qrup arasında çox ciddi şəkildə ziddiyyət var. BMT baş katibi də çağırış edib ki, nəticə olmadan Bakını tərk etməsinlər. 250 milyard dollar tələb olunan rəqəmin dörddə biridir. Ümumi hesablamaya görə, problemlərin qarşısını almaq üçün tələb olunan vəsait ildə 1.3 trilyon dollara yaxındır. Hər il dünyada hərbi xərclərə təxminən 2.4 trilyon dollar vəsait xərclənir. Dünya əhalisi geyim və moda sənayesinə 2 trilyondan çox vəsait sərf edir. Bu o deməkdir ki, inkişaf etmiş ölkələrdə tələb olunan vəsait var və sadəcə onu doğru istiqamətə yönləndirmək lazımdır. Burada əsas problem siyasi eqoizmdir. Razılaşmanın əldə olunmasından ən böyük maneə də siyasi məsuliyyətsizlikdir. Bəzi Qərbi Avropa ölkələrində hakim koalisiyalar dağılmaqdadır".

**İsmayıl**

**Ermənistan Baş naziri Nikol Paşinyan Bakı və İrəvanın qarşılıqlı olaraq məhkəmə iddialarını geri götürülməsi imkanlarından danışıb. Paşinyan bu barədə İctimai Televiziyaya müsahibəsində deyib.**



O bildirib ki, əgər biz həqiqi sülhə nail olsaq və sülh müqaviləsi imzalasaq, o zaman belə razılaşmanı nəzərdən keçirmək olar. Bu o deməkdir ki, keçmişdə baş vermiş hadisələrə görə nə biz, nə də onlar bir-birimizə qarşı iddia qaldırmalıyıq. Sərhəddə avropalı müşahidəçilərin olmasına gəlincə, Paşinyan, əslində, Azərbaycan tərəfdən belə bir tələbin olmasını inkar etməyib. Eyni zamanda o qeyd edib ki, İrəvan əks təkliflə - sərhədin delimitasiyası aparılacaq hissələrdən müşahidəçiləri geri çəkmək təklifi ilə çıxış edib.

# Nikol Paşinyan yenə manipulyasiya ilə məşğuldur

## Baş nazir daxili auditoriya və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa çalışır

**Politoloq Sultan Zahidov "Şərq"ə bildirib ki, Nikol Paşinyan yenə manipulyasiya edərək daxili auditoriya və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa çalışır:**

"O, ictimaiyyəti əsas problemlərdən yayındıraraq özünü sülh carçısı kimi göstərmək niyyətindədir. Yəni Nikol Paşinyan əvvəlki ritorikasından əl çəkməyib. Onun dediklərini heç bir fundamental əsas görmürəm. Reallıq ondan ibarətdir ki, Azərbaycanın Ermənistana qaldırdığı iddialar rəsmi İrəvanın uzun illər ərzində həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində Azərbaycana dəyən ziyanın təzminatı ilə bağlıdır. Ermənistan Azərbaycana qarşı müharibə cinayətləri törədib, insanların qətliamına səbəb olub və rəsmi Bakının enerji resurslarına çıxışını əngəlləyib. Belə olan halda Azərbaycanın işğala məruz qalan tərəf olaraq beynəlxalq qurumlara iddia qaldırması bəşəri prinsiplərə xidmət edən addım kimi dəyərləndirilməlidir. Azərbaycan cinayətkarların cəzalandırılması məsələsini gündəmə gətirir. Azərbaycan məhkəmə iddiasını geri çəkərsə, bu mənfi presedent yarada bilər. Digər ölkələrin də eyni cinayətləri törətmək üçün əl-qolunu açar. Azərbaycan bu iddianı heç zaman geri çəkməz. Çünki Azərbaycan erməni işğalından çox əziyyət çəkib və ziyanlara məruz qalıb".

**Ekspert qeyd edib ki, Ermənistan işğal törədən tərəf olaraq məhkəmə iddiasından əl çəksə nə olacaq, əl çəkməsə nə olacaq?**

"Ermənistan öz məhkəmə iddiasını Azərbaycanın iddiasıyla bağlamamalıdır. Avropa Birliyinin müşahidəçi missiyası şərti sərhəddə uzun müddətdir təxribatçı işlər görüblər və "binokl diplomatiyası" ilə məşğuldurlar. Onlar qeyri-rəsmi şəkildə guya ermənilərin təhlükəsizliyini təmin edirlər. Əsas məqsədləri isə iki ölkə arasında münasiblətləri gərginləşdirmək və sülhə əngəl törətməkdir. Azərbaycan ona görə haqlı olaraq bu missiyanın fəaliyyəti ilə bağlı narazılıqlarını dilə gətirir. Əgər Paşinyan davamlı sülhdə həqiqətən də maraqlıdırsa, onda Minsk qrupunun Ermənistandan çıxmasını tələb etməlidir".

**Şahanə Ziyad**

# Burada 2 məqsəd var

## And içməyənlər Rusiya vətəndaşlığını itirəcək

**Rusiya Daxili İşlər Nazirliyi ölkə vətəndaşlığını qəbul etmiş, lakin andiçmə prosedurundan keçməmiş şəxsləri noyabrın 23-dən etibarən Rusiya Federasiyasının vətəndaşı statusundan məhrum etməyə başlayıb.**



**"Birincisi, əcnəbilər üçün sadələşdirilmiş qaydada vətəndaşlıq alınmasının yerinə yetirilməsindən irəli gələrək bir sıra əlavə öhdəliklərin yaranması, şəxsin qanunlar qarşısında öhdəliklərinin olması, ikincisi də əcnəbilərin yerli cəmiyyətə inteqrasiyasıdır"**

Müvafiq normalar Rusiya Federasiyası Prezidentinin vətəndaşlıq məsələləri ilə bağlı fərmanında müəyyən edilib. Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin mətbuat mərkəzi bundan əvvəl noyabrın 22-nin bu kateqoriyadan olan vətəndaşlar üçün son andiçmə tarixi olduğunu açıqlamışdı. "Belə şəxslər 2024-cü il noyabrın 23-dən Rusiya vətəndaşlığını almamış hesab ediləcək və onların Rusiya vətəndaşlığını qəbul etmələri ilə bağlı qərarları etibarsız sayılacaq", - deyə RF DİN-nin məlumatında bildirilirdi. Lakin bu fərmanın müddəaları and içmək öhdəliyinin qüvvəyə mindiyi 2017-ci il sentyabrın 1-dən əvvəl Rusiya vətəndaşlığını almış və ya vətəndaşlıq alarkən ondan azad edilmiş şəxslərə şamil edilmir. Rusiyada çox sayda azərbaycanlının olduğunu nəzərə alsaq, belə sanksiyaların Rusiya vətəndaşlığını qəbul etmiş soydaşlarımıza da şamil ediləcəyi istisna deyil.

**Milli Məclisin deputatı, "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri Azər Alahverənov "Şərq"ə açıqlamasında qeyd etdi ki, Rusiyada miqrasiya qanunvericiliyinin müxtəlif komponentlər üzrə sərtləşdiyinin şahidi oluruq. Rusiya hökuməti qeyri-qanuni miqrasiya ilə çox ciddi mübarizə aparır. Burada məqsəd qeyri-qanuni miqrantların sayının azaldılması, həmçinin də miqrantların yerli cəmiyyətə tam inteqrasiya olunmasını təmin etməkdir:**

- Rusiya vətəndaşlığının sadə qaydada verilməsinə 2022-ci ilin aprel-may aylarında başlandı. Bu, Rusiyanın daha çox vətəndaşlıq əldə etmiş şəxs qazanması məqsədi daşıyırdı. Bəllidir ki, vətəndaşlıq alan şəxsin müəyyən hüquqi öhdəlikləri də yaranır. Son illərdə isə miqrasiya qanunvericiliyinə edilən dəyişikliklər qaydaların sərtləşməsiylə nəticələnib. Yeni qaydalardan biri də 2017-ci il sentyabrın 1-dən sonra Rusiya vətəndaşlığı almış şəxslərdən and içmələrinin tələb olunmasıdır. Bu qayda, bu tələb 2017-ci il sentyabrın 1-dək vətəndaşlıq almış şəxslərə şamil edilmir. Bu tarixdən sonra vətəndaşlıq alanlara şamil edilir. Bu da əlavə hüquqi öhdəlik yaradır. Əvvəllər Rusiya qanunvericiliyinə görə, şəxs vətəndaşlıq alırdı, amma andiçmə müəyyən müddət ərzində baş verirdi. Bu ildən etibarən qaydalar dəyişib. Nəinki 2017-ci il sentyabrın 1-dən sonra vətəndaşlıq alanlar, ümumiyyətlə, bundan sonra hər hansı bir əcnəbi Rusiya vətəndaşlığı aldığı zaman and içməlidir. Əvvəlcə vətəndaşlıq alanlara da noyabrın 22-dək andiçmə üçün möhlət verilmişdi. Kim and içdisə, vətəndaşlığı saxlanır, and içməyənlərin vətəndaşlığı ləğv edilir. And içməyənlər Rusiya vətəndaşlığını itirəcək. Burada 2 məqsəd var. Birincisi, əcnəbilər üçün sadələşdirilmiş qaydada vətəndaşlıq alınmasının yerinə yetirilməsindən irəli gələrək bir sıra əlavə öhdəliklərin yaranması, şəxsin qanunlar qarşısında öhdəliklərinin olması, ikincisi də əcnəbilərin yerli cəmiyyətə inteqrasiyasıdır. Andiçmə əlavə hüquqi öhdəlik yaradan haldır, andiçmədə vətəndaşlıq institutu tam şəkildə təmin olunmuş olur. Buna xüsusi diqqət yetirilir. Burada hərbi xidmət öhdəliyi də ola bilər. Ola bilsin bəzi əcnəbilər Rusiya vətəndaşlığının itirilməsindən narahat olmazlar, əksinə sevinərlər ki, hüquqi öhdəliklərdən azad olurlar, amma vətəndaşlığın itirilməsi əlavə problemlər yaradır. Rusiya vətəndaşlığı almaqla öz ölkəsinin vətəndaşlığından çıxmış şəxsin təkrar ölkəsinin və ya başqa bir ölkənin vətəndaşlığını alması çətin ola bilər. İstənilən halda bu çox ciddi hüquqi prosesdir. Bunun olmaması vətəndaşlığın itirilməsinə gətirib çıxaracaq.

**Məlahət Rzayeva**

# Yeni xəritələr qanla çəkilir

## Ukrayna tərəfi şərtləri qəbul etmir

**Rusiya-Ukrayna müharibəsi gözlənilənin əksinə daha şiddətli mərhələyə qədəm qoyub.**




**Rusiya müharibənin davam etməsində daha çox maraqlı tərəf kimi görünür**

ABŞ-dəki seçkiləri uduzan demokratlar müharibəni dayandıracağını bəyan edən Trampa ATACMS sürprizi etdilər. Rusiyanın dərinliklərinin vurulması ilə bağlı icazənin verilməsi Qərbdə birmənalı qarşılanmırdı. Bir çox ekspertlər də bu icazədən sonra Rusiyanın daha da aqressivləşəcəyini deyirdilər.

**Bu barədə fikirlərini "Şərq"lə bölüşən siyasi şərhçi Səxavət Məmməd də ATACMS-dan istifadənin Ukraynaya baha başa gələcəyini bir neçə dəfə yazdığını deyib:**

"Nədənsə Qərbdə və Azərbaycanda da bəzi şəxslərdə belə bir fikir formalaşmışdı ki, İran və Rusiya ancaq blef edir. İranın İsrailə ikinci hücumu onu göstərdi ki, İranın dili olduğu kimi, diyircəyi də var. Rusiyaya gəldikdə isə rusların qitələrarası raketlərinin olması, uğurlu sınaqları onu deməyə əsas verirdi ki, Moskva bundan hər an istifadə edə bilər.

Ukrayna tərəfi ATACMS-lardan istifadə edərkən elə bir əhvala bürünmüşdü ki, sanki müharibənin taleyi həll olacaq. Ancaq rusların "Oreşnik" raketi ilə zərbə endirməsi sanki qurbağa gölünə daş atmağa bənzədi. Zelenski həmişəki kimi tərəfdaşlarını kömək etməməkdə ittiham etdi. Nəticə nə oldu? "Oreşnik"in sınaq atışı siyasi baxımdan Rusiyanın nə qədər ciddi olmasını göstərdi. Raketin özü isə Qərbin hava hücumundan müdafiə sistemlərinin heç bir işə yaramadığını ortaya qoydu. Ola bilsin deyənlər olacaq ki, bir raketlə heç nə etmək olmaz. Bir şeyə diqqət etmək lazımdır ki, NATO bir raketə görə toplantı keçirmək məcburiyyətində qalıb.

Rusiya-Ukrayna müharibəsinə diqqət etdikdə, Qərbin Rusiyanı düzgün proqnozlaşdıra bilmədiyinin açıq şahidi oluruq. "Rusiya etməz, Rusiya bu qədər dözməz, Rusiya bu qədər irəli getməz" deyilən hər şeyi Rusiya etməkdədir. Məğlubiyyət və tələskənlik həmişə səhvlərə yol açır. Rusiyanın "Oreşnik" raketindən istifadəsi Qərbdə də birmənalı qarşılanmadı. Əksər ekspert və jurnalistlər Rusiyanın addımını cavab zərbəsi kimi qiymətləndirdi. Buna qədər bütün münaqişələrdə Qərb həmişə bu xətti tuturdu: "Qarşı tərəf səhv etdi, cavab veririk, yaxud cəzalandırırıq". Eyni vəziyyətlə indi Ukrayna və Qərb üz-üzə qalıb.

Müharibənin lap əvvəlinə baxaq: Qərb, əslində, istəyinə nail olmuşdu. Qərb məcbur etmişdi ki, Rusiya Ukraynaya hücum etsin. Bunu Putin də etiraf edib. O zaman Rusiyanı işğalçı kimi göstərmək, sanksiyalar tətbiq etmək çox asan idi. Rusiyanın səhvi vardı və cəzalandırılırdı. Hazırda situasiya dəyişib. Vəziyyət hətta o həddə çatıb ki, mətbuat üzərindən manipulyasiya etmək də çətinləşib.

Müharibə elə bir həddə çatıb ki, kimin işğalçı, kimin təcavüzə məruz qalan olduğu heç kimə maraqlı deyil. Hər kəsə maraqlı olan müharibənin necə bitəcəyidir".

**S.Məmmədin fikrincə, hazırda Qərb müharibəni necə dayandırmağın yollarını axtarır. Rusiya tərəfinin isə şərtləri məlumdur. Ukrayna tərəfi də bu şərtləri qəbul etmir:**

"Bu o deməkdir ki, müharibə davam edəcək. Rusiya müharibənin davam etməsində daha çox maraqlı tərəf kimi görünür. Çünki sahədə Rusiya irəliləyir. Hər gün bir və bir neçə yaşayış məntəqəsini işğal edir. Belə olan halda, Rusiyanın quru atəşkəslə razılaşacağını qətiyyən düşünmürəm. Qərb də bunun fərqindədir. Rusiya nəinki işğal etdikləri ərazilərin ona qalmasını istəyəcək, əlavə ərazilər də tələb edəcək. Qərb bununla razılaşacaq, razılaşmayacaq, bunu görəcəyik. Bütün siyasi xəritələr qanla çəkilib. Qanunlar, qaydalar isə ona uyğunlaşdırılıb. Beynəlxalq hüquq, münasibətlər, BMT işləksiz bir haldadır. BMT cırtdan Ermənistana öz qətnaməsini qəbul etdirə bilmirdi, milyardlarla pul, on minlərlə insan ölümü ilə nəticələnəcək münaqişəni həll edəcək?! Hazırkı vəziyyət onu göstərir ki, hərbi gücü artırmaqda fayda var. Hətta Rusiyanı ABŞ və Çin hansısa bir formada atəşkəsə razı salsalar belə, bu müvəqqəti xarakter daşıyacaq. Böyük müharibə qaçılmaz olsa, bizim region da bundan nəsibini alacaq. O zaman işğal və işğalçı anlayışı da olmayacaq. Qalib və məğlublar olacaq".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"



# Kəlbəcər Böyük Qayıdışa hazırlanır

## Artıq şəhərin özündə yaşayış binaları, yol infrastrukturu qurulur

**”Böyük Qayıdış” proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı layihələr həyata keçirilməkdədir. 2020-ci ilin Vətən müharibəsi Azərbaycanın tarixində yeni bir səhifə açdı. 44 gün davam edən bu müharibə nəticəsində ölkəmiz Ermənistanın hərbi təxribatlarına qətiyyətlə cavab verərək, öz ərazi bütövlüyünü bərpa etdi.**

Müharibənin nəticəsi olaraq, Ermənistan 10 noyabr tarixində üçtərəfli bəyanatla kapitulyasiya aktını imzaladı. Bu sənəd əsasında işğal altında qalan Kəlbəcər, Laçın və Ağdam rayonlarının bir güllə atılmadan azad edilməsi, Azərbaycanın diplomatik və hərbi bacarığının əyani sübutu oldu. 10 noyabr bəyanatına əsasən, Ermənistan Kəlbəcər rayonunu 25 noyabr, Ağdam rayonunu 20 noyabr və Laçın rayonunu 1 dekabr 2020-ci il tarixində Azərbaycana təhvil verməli oldu. Ötən dörd il ərzində Kəlbəcər, Laçın və Ağdam rayonlarında həyata keçirilmiş abadlıq-quruculuq işləri Azərbaycan xalqının yenidən bu torpaqlara qayıtmasını təmin edir. Son 4 il ərzində Prezident İlham Əliyevin Ağdam və Kəlbəcərə etdiyi səfərlər, bu səfərlər çərçivəsində etdiyi çıxışlar və səfərlərdəki müşahidələr, hazırlanan materiallar əsasında Qarabağ və Şərqi Zəngəzurda bərpa işlərinin miqyası və əhəmiyyəti aydın görünür.

2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Prezident cənab İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, bu şanlı tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur. Kəlbəcər Azərbaycanın təbii sərvətlərlə zəngin olan rayonlarından biridir. Prezident İlham Əliyevin bu rayona 2021-ci ilin iyun ayında etdiyi ilk səfəri zamanı rayonun strateji əhəmiyyəti vurğulandı. Prezident İlham Əliyev bildirdi: ”Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq”.

Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal olunmuşdu. İşğalçılar onlarla tarixi-mədəniyyət abidəsini, 97 məktəbi, 9 uşaq bağçasını, 116 kitabxananı, 43 klubu, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsini, 23 ambulatoriyanı, 9 apteki, yüzlərlə inzibati binanı, minlərlə evi, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun milyardlarla manatlıq sərvətini Ermənistana daşıyıblar. Kəlbəcərdə erməni vəhşiliyinin izləri hər addımda görünür. Dağıntı və talanlar həm işğal dövründə, həm də 2020-ci ildə ermənilər rayondan çıxarkən davam etdirilib. İşğaldan azad olunan Kəlbəcərə səfər edən Prezident cənab İlham Əliyev bu barədə danışarkən deyib: ”Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar”. İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunmuşdu.

Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər nəticəsində strateji yüksəkliklərin götürülməsi həmin istiqamətdə erməni silahlı qüvvələrinin hərəkətlərini böyük dərəcədə məhdudlaşdırmağa imkan yaratdı. Əks-hücum əməliyyatının tərkib hissəsi olan bu əməliyyatların gedişində Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edildi, amma əksər hissəsi Ermənistan kapitulyasiya aktına imza atandan sonra azadlığına qovuşdu. Kəlbəcərin əlverişli relyefi, saf dağ iqlimi, mineral suları, o cümlədən Yuxarı İstisu, Aşağı İstisu kimi müalicəvi təsirə malik mineral su yataqları burada turizmin inkişafı üçün geniş imkanlar yaradır. Kəlbəcər həm də turistlərdə maraq yarada biləcək bir çox tarixi abidələrlə zəngindir. Burada 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə islamın yayıldığı dövrlərin yadigarlarıdır.

İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də geniş miqyaslı bərpa-quruculuq işləri aparılır. Həmin layihələr sırasında Toğanalı-Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Kəlbəcər-Laçın avtomobil yolu üzərində 3,4 kilometr uzunluğundakı tunelin tikintisinə start verilib. 2022-ci il iyunun 26-da Azərbaycan Prezidenti Kəlbəcər rayonunda yeni tikilmiş ”Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin ”N” saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub. Həmin gün Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, rayondakı su istehsalı zavodunun, İstisu sanatoriyasının təməli qoyulub. Təməlqoyma mərasimində Azərbaycan Prezidentinin də iştirak etdiyi İstisu qəsəbəsində yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılır. Prezident İlham Əliyev 2023-cü il mayın 27-də Kəlbəcər rayonuna səfəri çərçivəsində hərbi hospitalın, ”Qamışlı” və ”Meydan” Kiçik Su Elektrik stansiyalarının açılışlarında, yaşayış məhəlləsinin və 960 şagird yerlik məktəbin, həmçinin Yanşaq və Zallar kəndlərinin təməlqoyma mərasimlərində iştirak edib. ”İstisu” sanatoriyasının yenidən qurulması layihəsi çərçivəsində 100 milyon manat sərmayə yatırılıb. Kəlbəcər rayonunda aparılan nəhəng quruculuq işləri bu diyarın gözəl gələcəyindən, azad olunmuş ərazilərə ”Böyük Qayıdış”ın uğurlu perspektivindən xəbər verir.

### "Ümid edirik ki, artıq gələn il ilk sakinlər Kəlbəcərdə inşa olunmuş evlərə köçəcəklər"

**”Türküstan” Media Qrupunun rəhbəri, kəlbəcərli jurnalist Aqil Camal ”Şərq”ə deyib ki, həm kəlbəcərlilər, həm də bütövlükdə Azərbaycan xalqı Kəlbəcərin işğaldan azad edilməsinin 4-cü il dönümünü qeyd edir. Baş redaktor vurğulayıb ki, Kəlbəcərin azadlığı digər rayonlarımızdan fərqli olaraq güllə atılmadan, hərbçilərimizin qanı tökülmədən, Azərbaycan Ordusunun daha əvvəl cəbhədə qazandığı uğurlar sayəsində Ermənistanın imza atdığı kapitulyasiya aktına əsasən həyata keçirildi:**

”Bir kəlbəcərli olaraq həmin günləri yad edərkən bir məqamı xatırlatmaq istəyirəm. Əslində ermənilər kapitulyasiya sənədinə əsasən Kəlbəcəri 10 gün öncə tərk etməli idilər. Tarix yetişəndə guya köç prosesi üçün əlavə on gün zaman istədilər. Kəlbəcəri 30 ildə dağıtdıqları, viran qoyduqları kimi son 10 gündə də eyni əməlləri törətdilər, evləri, meşələri yandırdılar. Təbiətə daha çox ziyan vurmaq üçün əllərindən gələni etdilər. Nəhayət yurdumuzu tərk etdilər. Noyabrın 25-i Kəlbəcərin azadlığı günü kimi qeyd edirik. Hazırda Kəlbəcərdə bərpa-quruculuq işləri həyata keçirilir. Kəlbəcər Böyük Qayıdışa hazırlanır. Kəlbəcərin relyefi orada tikinti işlərinin çox sürətlə aparılmasına imkan vermir, müəyyən çətinliklər var. Amma bununla belə zaman-zaman görürük ki, artıq həm şəhərin özündə yaşayış binaları, yol infrastrukturu qurulur. Kəlbəcərə yol xətti də çəkilib. Cənab Prezident il ərzində bir neçə dəfə işğaldan azad olunmuş digər rayonlar kimi Kəlbəcərə də səfər edir, görülən işlərə bilavasitə özü nəzarət edir, lazımi tapşırıqlarını verir. Ümid edirik ki, artıq gələn il ilk sakinlər Kəlbəcərdə inşa olunmuş evlərə köçəcəklər. Mən özüm də qayıdışla bağlı ailəm adından müraciət etmişəm. Ümid edirəm ki, bizim ailəmizin də qayıdışı ilk mərhələdə Kəlbəcərdə məskunlaşacaq ailələr sırasında olacaq. Bundan sonra bütün kəlbəcərlilərə əbədi Kəlbəcərdə yaşamağı arzu edirəm”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Sonuncu dərs, birinci olmalıdır

## Fiziki tərbiyə dərsləri ilə bağlı xüsusi mexanizm hazırlanmalı, bu fənlərin dərs saatları artırılmalıdır



**Müasir dövrdə fiziki tərbiyə və idman öz aktuallığını qoruyub saxlayır. Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi, idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və 50-yə yaxın olimpiya idman kompleksinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür. Ölkə rəhbərliyi bu inkişafın bütün ölkəyə yayılmasını və idmanın kütləviləşməsini istəyir. Paytaxtda və bölgələrdə güclü idman bazaları yaradılır ki, gənclərimiz bu bazalarda idmanla məşğul olaraq sağlam böyüsünlər.**

Araşdırmalara görə, hər bir yeniyetmənin həftə ərzində azı 10-12 saat fəal fiziki hərəkətlərlə məşğul olması vacibdir.

Lakin realda məktəblilərin çox az bir hissəsi idman dərnəklərinə və bölmələrinə, ümumi fiziki hazırlıq qruplarına cəlb olunublar. Bunun nəticəsidir ki, uşaqlar və yeniyetmələr arasında hipodinamiya təhlükəsi getdikcə artır, bu da ürək, qan-damar, əsəb və maddələr mübadiləsinin pozulması kimi bir sıra xəstəliklərin geniş yayılmasına gətirib çıxarır.

Müasir dövrdə məktəblərdə təhsil alan uşaq və yeniyetmələr zehni iş ilə həddən artıq yüklənirlər. Alimlər sübuta yetirir ki, məktəblilərin gün rejiminin 82-85 faizi məktəbdə və evdə dərs öyrənməyə, tapşırıqları həll etməyə, bir sözlə, oturaq həyat tərzinə sərf olunur. Hətta kiçikyaşlı məktəblilərin fiziki hərəkətlərə və aktiv fəaliyyətə olan tələbatı isə cəmi 15-19 faiz ödənilir.

Bu səbəbdən orta ümumtəhsil məktəblərində bədən tərbiyə dərsləri ilə bağlı ciddi narazılıqlar var.

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri ”Şərq”ə açıqlamasında deyib ki, təhsil müəssisələrində fiziki tərbiyə təhsilinin tədris vəziyyəti geniş və dərin bir müzakirə mövzusudur. Sektor müdiri hesab edir ki, fiziki tərbiyə fənninin məktəblərdə tədrisi şagirdlərin fiziki, psixoloji və sosial inkişafında mühüm rol oynayır. Bu fənnin doğru tədrisi və inkişafı uşaqların həm sağlamlığını, həm də sosial bacarıqlarını inkişaf etdirir:**

”Çox ciddi bir mövzuya toxunmusunuz, buna görə də sizin qəzetə xüsusi təşəkkür edirəm. Məktəblərdə fiziki tərbiyə dərslərinin keçirilməsi kifayət qədər əhəmiyyətli bir məsələdir. Təəssüf ki, mövcud sistemdə idman təhsilinin yetərli inkişaf etmədiyi nəzərə çarpır və bu sahədə bəzi əhəmiyyətli çatışmazlıqların olduğu görünür. Pərdəarxasında bu dərslərə ikinci-üçüncü dərəcəli kimi baxırlar.

Tədris, uşaqlarımızın zehni, fizioloji və psixoloji inkişafı adına çox vacib məsələ olmasına rəğmən həddindən artıq kölgədə qalan, zaman-zaman toxunulsa da üstündən səthi keçilən bir problemdir. Bu da məyusedici bir haldır. Biz məktəblərdəki fiziki tərbiyə dərslərinə heç zaman dırnaqarası baxmamalıyıq. Fiziki tərbiyə dərsi idman dərsi deyil ki, karate, boks, güləş, kikboks kimi idman növləri öyrədilsin. Fiziki tərbiyə uşaqların fizioloji sağlamlığından əlavə zehni inkişafına təsir edən bir mexanizmdir. Bu fənni tədris edən müəllimlər bütün bu detalları əzbər bilməlidirlər. Bir uşağın dərs götürümü, yaddaşı, analizetmə qabiliyyəti onun fizioloji və zehni qabiliyyətindən asılıdır”.

**Tədqiqatçının sözlərinə görə, məktəbdə əsas fiziki tərbiyə vasitəsi fiziki hərəkətlərdir. Fiziki hərəkətlər vərdiş formalaşdırır, hərəkət aparatını inkişaf etdirir**:

“Qan dövranını və maddələr mübadiləsini yaxşılaşdırır, tənəffüsə müsbət təsir göstərir. İnsanın onurğa beyni ilə baş beyin arasındakı əlaqələrin düzgün qurulmasına gətirib çıxarır. Fiziki hərəkətlər surəti, çəldliyi, gücü, dözümlülüyü artırır, insan həyatı üçün vacib olan yeriş, qaçış, hoppanma, müvazinət və atmalar kimi təbii hərəkətlər üzrə vərdişləri təkmilləşdirir.

Bu imkanlara sahib uşaqlar isə zehnli və savadlı olurlar. Amma kimə deyirsən!? Orta ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinə laqeyd yanaşma sərgilənir. Dərsi tədris edən müəllimlərin bilik və bacarıqları, nəzəri və praktiki hazırlıqları hansı səviyyədədir. Bunun özü belə ayrıca bir müzakirə mövzusudur. Müşahidələrimə əsasən, bu fənni tədris edən müəllimlərdən xeyli narazılıqlar var. Əlbəttə ki, istisnalar yox deyil. Lakin əksər hallarda bu fənni tədris edən müəllimlər uşaqların əlinə topu verib, vaxt öldürürlər. Hesab edirəm ki, orta ümumtəhsil məktəblərində fiziki tərbiyə dərsləri ilə bağlı ayrıca bir tövsiyə sənədi hazırlanmalıdır.

Elm və Təhsil Nazirliyi məhz fiziki tərbiyə dərsləri ilə bağlı xüsusi mexanizm sənədi hazırlamalı, bu fənlərin dərs saatları artırılmalıdır. Dərs saatlarına xüsusi diqqət ayrılmalıdır. Əksər məktəblərdə fiziki tərbiyə axırıncı dərs saatına salınır. Bu da uşaqların yorğun və yuxulu olduğu dövrə təsadüf edir. Gözündən yuxu tökülən, zehni cəhətdən tükənmiş olan şagirdlərin fiziki tərbiyə dərsinə can atması, aktivlik göstərməsi isə real deyil. Dərslərin ilk saatlarda başlamasını da problem edirlər ki, uşaqlar tərləyir və tərli-tərli 5 saat digər dərslərdə oturan uşaq xəstələnir. Yaxşı, deyək ki, haqlı səbəbləri var. Lakin bunun bir orta yolu tapılmalıdır. Şagirdlər dərslərdə tərli-tərli oturmasın deyə fiziki tərbiyə dərslərini lazımsız bir fənn kimi sonuncu saata saxlamaq da məntiqli yanaşma deyil axı!? Məgər, fiziki tərbiyə sonuncu dərs kimi keçiriləndə tərləyən uşaq evə gedəndə xəstələnməyəcək?

Ona görə deyirəm ki, aidiyyəti qurum xüsusi tövsiyə sənədi hazırlamalı və düzgün mexanizm tətbiq etməlidir. Biz bu fənnin tədrisinin şagirdlərin fiziki və psixoloji inkişafı üçün vacibliyini mütləq əsaslandırmalıyıq”.

**Şəymən Bayramova**



# "Ədəbi əks-səda"nın sədası sonra çıxacaq

## Nicat Həşimzadə: "Qəzetdə çap olunmağın zövqünü elektron media yaşada bilmir"

**"Adam utandığından deyə də bilmir ki, qardaş, bizim ofisimiz, redaksiyamız, dizaynerimiz, o qədər vəsaitimiz yoxdur"**

**"Press Əks-səda" qəzetinin xüsusi buraxılışı "Ədəbi əks-səda" adlanır. Bu nəşrin necə, haradan əlimizə keçdiyi önəmli deyil. Diqqətimizi çəkən nəşrdə fərqli müəlliflərin - aralarında gənclər də var, orta yaşlılar da - qələmindən çıxan ədəbi nümunələrinə yer verilməsi oldu. "O qədər də tanınan yazarlar deyil", söyləsək, ümid edirik inciməzlər. Ədəbi cameənin "fəalları" zatən bəllidir.**

Maraqlı olan nəşrin hansı ehtiyacdan, hansı zərurətdən yarandığıdır. Günümüzdə populyar mətbu orqanlar, ədəbi məcmuələr var: "Azərbaycan", "Ulduz" jurnalı, "Qobustan" toplusu, "Literaturnıy Azerbaydjan", "Ədəbiyyat" qəzeti. Elə "525-ci qəzet" də səhifələrində şair-yazıçıların əsərlərinə daim geniş yer verir. Bir növ, ədəbi missiyanı üzərinə götürüb. Bundan başqa, hazırda ədəbi sahə üzrə ixtisaslaşmış saytlar, portallar da var.

**Belə bir çoxnövlülük zamanında xüsusi ədəbi buraxılış etmək də hünər istəyir. Bunu necə bacarır "Press Əks-səda" qəzeti? Yeri gəlmişkən, redaksiya heyətində təmsil olunan yazar Nicat Həşimzadə ilə bu barədə söhbət etdik.**

**- Nicat bəy, "Ədəbi əks-səda" nə qədər müddətdir nəşr olunur?**

- Əvvəlcə "Şərq" qəzetinin bütün kollektivinə təşəkkür edirəm ki, qəzetimizə belə maraq göstərirsiniz. Oktyabr ayında "Ədəbi əks-səda" qəzetinin ilk nömrəsi nəşr olundu. Noyabr ayında ikinci nömrəni nəşr etdik. Üçüncü nömrəni bir neçə gün öncə 23 yaşında vəfat edən çox istedadlı gənc şairimiz Rauf Raya həsr edəcəyik. "Press əks-səda" qəzeti illərdir ki, nəşr olunur. Əvvəllər ədəbiyyat əlavəsi də olub. Sonra bəzi səbəblərdən dolayı ədəbiyyat əlavəsinin çapı dayanıb. Süleyman Abdulla oktyabr 1-ci nömrənin girişində bu haqda yazıb.

**- Xüsusi buraxılışın təqdimat bölümündə redaksiya heyətinə daxil olanlar arasında adınız var, ona görə sizə müraciət etdik. Bilmək istərdim, siz ancaq xüsusi buraxılışın redaksiya heyətində çalışırsınız, ya "Press əks-səda" qəzetinin əməkdaşısınız?**

- Səmimi cavab verəcəm. Redaksiya deyəndə ki, ofisimiz, bəlli bir məkanımız yoxdur. Redaksiyamız var ki, heyəti də olsun?! Bunu xahiş edirəm ki, oxucular şikayətlənmək kimi qəbul etməsinlər. Ədəbiyyat bir qara sevdadır. Ondan heç nə qazana bilməsən də, onsuz yaşaya bilmirsən. Bu, bəşər tarixinin ən gözəl qara sevdasıdır. Bu qara sevdanın səfasını yaşamasan da, olar. Bu qara sevdanın cəfası bütün səfalardan daha gözəl, daha şirin, daha müqəddəsdir. Bu taleyi özümüz seçmişik. "Press əks-səda" qəzetinin bütün zəhmətini dəyərli şairimiz, daim bizə öz dəyərli fikirləri və əməksevərliyi ilə dəstək olan Süleyman Abdulla müəllim çəkir. "Ədəbi əks-səda"nın da bütün zəhməti "Biz" klubun rəhbəri, yazar dostumuz Nemət Mətinə və Süleyman Abdullaya aiddir. Nemət yazıları toplayır, müəlliflərlə danışır. Süleyman müəllim də nəşr, dizayn işlərini görür. Qəzetlərin köşklərə paylanmasında da Süleyman müəllimin danılmaz əməyi var. Peyğəmbər adaşlı bu insandan başqa biri, çətin ki bizim kimi ərköyün gənclərə dözəydi. O ki qaldı mənim redaksiya heyətində olmağıma, hazırda ADU-nun Tərcümə fakültəsində müəllim vəzifəsində çalışıram. Həm də repetitoram. Son iki ildə işlərin çoxluğu səbəbindən bircə cümlə də yaza bilməmişəm. Mətbuat da məni çoxdan unudub. Bu gün siz mənə mesaj yazanda çox təəccübləndim sözün düzü. Azər Qismət, mən və digər dostlar imkan tapdıqca "Ədəbi əks-səda" qəzetinin oxunulması, oxucular və müəlliflər tərəfindən tanıdılması, gənc müəlliflərin cəlb olunması istiqamətində işlər görürük. Bunun qəzetin redaksiya heyətinin üzvlüyü işinə nə qədər aid olub-olmadığını da bilmirəm. Heç zaman heç bir qəzetdə çalışmamışam. Heyif ki, bu sahədə təcrübəm yoxdur. Saytlarda olmuşam, elektron media siyasəti ilə az-çox tanışam. Amma qəzet tamamilə fərqli imiş. Əgər "Ədəbi əks-səda" olmasaydı, bu həqiqəti heç vaxt bilməyəcəkdim. Bu gün qəzetçiliyi yaşadanlar böyük hörmətə layiqdirlər. Şəxsən mən, qəzetsiz bir dünyada, kağız kitablar olmayan bir dünyada yaşamaq istəmərəm.

**- Maraqlıdır, belə bir xüsusi buraxılış nəşr etmək qərarına necə gəlindi?**

- Mərhum sənətşünas Ənvər Börüsoy müəllim məsləhət görmüşdü ki, "Yeddi gözəl adam" serialını izləyim. Türkiyənin ədəbi, siyasi mühitini, tarixini çox yüksək səviyyədə ifadə ediblər bu serialda. Serialın adı şair Cahit Zarifoğlunun "Yeddi gözəl adam" adlı şeirindən götürülüb. Bu serialda yeddi ədəbiyyat sevdalısı dərgi nəşr edirlər, biri-birilərinin yazılarını, fikirlərini müzakirə edirlər, həmçinin dərgiyə göndərilən şeirləri, hekayələri təhlil edirlər. Həmin məktublara cavab verənlərdən biri də mənim çox sevdiyim yazıçı Rasim Özdənörən olub. Onun "Gül yetişdirən adam" romanı dünya ədəbiyyatının ən mükəmməl romanlarından biridir. Təəssüf ki, gənclərimiz bu müəllifi, bu romanı tanımırlar. Əslində, "Əks-səda" qəzetinin ədəbiyyat əlavəsinin yaranması da bu cür səbəblərdən oldu. Noyabr sayında Rasim Özdənörən haqqında yazılan məqaləm çap edilib. Sözün düzü, bu qədər çox maraq qazanacağını düşünmürdük. Bir dəfə feysbukda yazmışdım ki, "Yeddi gözəl adam" serialını izləmədən, "Gül yetişdirən adam" romanını oxumadan ölmək günahdır. Bu film haqqında dostlarıma danışırdım. Nemət Mətinə də deyirdim ki, bir qəzetimiz, jurnalımız olsa, yaxşı olar. Bəlkə də, o daha əvvəl deyib qəzet, jurnal ideyasını. Dəqiq xatırlamıram. Bu serialı izlədikcə məndə böyük həvəs, arzu yaranırdı ki, kaş öz qəzetimiz ola. Süleyman Abdulla bu ideyamızı, istəyimizi dəstəkləməsəydi, yəqin ki, reallaşmayan arzular siyahımıza daha biri əlavə olunacaqdı.

**- Müəllifləri özünüzmü cəlb edirsiniz, ya özləri göndərirlər yazılarını? İncıməzsiniz yəqin, çox da tanınmayan müəlliflərdir. Bilmirəm, bəlkə də gənc yazarlar arasında tanınırlar...**

- Xüsusi buraxılışın yaradılmasında ilk səbəb bölgələrdə yaşayan müəllifləri çap etmək, oxuculara tanıtmaq olub. Əslində indi tanınmaq böyük problem deyil. İstedad varsa, maraqlı adamsansa, feysbukda səni tapırlar, izləyirlər. Ancaq qəzetdə çap olunmağın zövqünü elektron media yaşada bilmir. Kağız kitabın zövqünü elektron kitab verə bilmir. Qəzet çapdan çıxanda onun ətri insanı yaşadır, sanki insanı həyata, yaşamağa, xeyirxahlığa, gözəl əməllərə çağırır. Həm də ki kağız qalıcıdır, sayt bağlananda bütün məlumatlar itir. Bir saytda xeyli tərcümələrim çap olunmuşdu. Arxayın idim ki, kitab halında toplamaq istəyəndə saytdan yığacam. Nə biləydim ki, sayt bağlanacaq. Təəssüf ki, tərcümələrimi tapa bilmədim. Borxesin, Çarli Çaplinin, Markesin, Folknerin müsahibələrini tərcümə etmişdim. Nitsşenin, Freydin Dostoyevski haqqındakı fikirlərini tərcümə etmişdim. Tanınan müəllifləri də çap edirik. Məsələn, Tərlan müəllim poeziyada sözünü demiş, öz üslubu olan şairdir. Bu nömrədə onun şeirləri çap olunub. Keçən nömrədə Vaqif Osmanovu çap etmişdik. Azad Müzəffərlinin hekayəsi çap olunub. Çox maraqlı hekayədir. Çox səmimi yazılıb, müəllif ruhunu, qəlbini qoyub hekayəyə. Əfsər Oğuzun maraqlı üslubu var, fərqli şeirlər yazır. Elsevər Hüseynoğlunu bir neçə ildir ki, tanıyıram. Əvvəllər də şeir yazırdı, amma indiki kimi yazmırdı. Son 9-10 ay ərzində xeyli inkişaf edib, hiss olunur ki, mütaliəsi artıb, öz üzərində çalışır. Mən gənc olanda heç kim çap etmirdi yazılarımı. Tanışım da yox idi, dəstək olsun. O qədər kədərlənirdim ki, çap olunmayanda. Yazılarımın zəif olduğunu da demirdilər heç. Tənqid etsəydilər, düzəldərdim, öz üzərimdə çalışardım. Çox yazı göndərilir, seçim etmək çətindir. Cəmi iki nömrə nəşr edilib. Tam səmimi deyirəm, tanımadığım, bilmədiyim neçə istedadı özüm üçün kəşf etdim. Mən çox istəyirəm ki, gələcəkdə Azərbaycan ədəbiyyatında təsdiq ediləcək müəlliflərin ilk yazıları bizim qəzetdə çap olunsun. Azərbaycan ədəbiyyatında kiçik bir töhfə verə bilsək, özümü çox xoşbəxt sayaram. Qəzetimizi tənqid edənlər də olur. Təbii haldır. Məsələn, dizaynını tənqid edirlər. Adam utandığından deyə də bilmir ki, qardaş, bizim ofisimiz, redaksiyamız, dizaynerimiz, o qədər vəsaitimiz yoxdur.



ƏDƏBİ ƏKS-SƏDA

"PRESS ƏKS-SƏDA" QƏZETİNİN XÜSUSİ BURAXILIŞI, NOYABR - 2024, № 2

BU SAYIMIZDA:

POEZİYA

*TƏRLAN ƏBİLOV şeirlər - səh.
*ÜLVİYYƏ NİYAZQIZI şeirlər - səh.
*ZİRƏDDİN QULİYEV şeirlər - səh.
*İLAHƏ ŞƏMS şeirlər - səh.
*ƏFSƏR OĞUZ şeirlər - səh.
*ELSEVƏR HÜSEYNOĞLU şeirlər - səh.

NƏSR
(HEKAYƏLƏR)

* AZAD MÜZƏFFƏRLİ
"Bitməyən nigarançılıq" - səh. 8
* ŞAMİL HƏSƏN "Növbədə" - səh. 15
* RÜSTƏM ŞƏRİFZADƏ
"Çoban iti" - səh. 25

(SƏNƏDLİ HEKAYƏ)
VAQİF OSMANLI
"Həkim və yaralı əsgərin dialoqu" - səh. 13

DÜNYA ƏDƏBİYYATI
...AHİR N. QARAYEVİN tərcüməsində
...RNOLD HOLMA (NORVEÇ)
"...lan və qoca" - səh. 16

**- Çap olunan yazılar mətnin keyfiyyətinə görə çap edilir, ya tanışlıq əsas rol oynayır?**

- Ədəbiyyat, sənət tanışlıq anlayışını anlamır. Mənim "Boşluqdan qaçış" romanım haqqında ən kəskin tənqidləri ən yaxın dostlarım yazıb. Mən də onları tənqid etmişəm. Ancaq bu tənqidlər bizim dostluğumuza əngəl deyil, ola bilməz, olmamalıdır da. Mətn yaradan adamlar arasında sorğu keçirsəniz ki, keyfiyyətli mətn necə olur, yetərincə subyektiv cavablarla qarşılaşacaqsınız. İstənilən keyfiyyətli mətni tənqid etmək üçün səbəblər tapmaq olar. İstənilən ortabab mətni də tərifləmək üçün səbəblər tapmaq olar. Müdriklər deyir ki, mətn məntiqi ardıcıllığı gözlənilən, strukturu nizamla qurulan, dil normaları gözlənilən cümlələr toplusudur. Əlbəttə ki, mətn üçün məntiqi əlaqə vacibdir. Qeyri-səlis məntiqin kəşfindən sonra bütün bu təriflər, düsturlar öz aktuallığını itirib. Post-modern dövrdə kimdənsə ağıllı, məntiqli mətn tələb etmək nə qədər doğrudur? Tanışlıq əsas rol oynasaydı, niyə qəzeti abunəçilərdən yığılan vəsait hesabına çap edirdik ki? Bu qədər zülmü, iztirabı niyə çəkirdik ki? Məsələn, elə abunəçi olur ki, elə bilir abunə oldusa, hər nömrədə çap edilməlidir. Ödənişini geri qaytarıb nəzakətlə sağollaşırıq. Qəzetdəki bütün mətnlər yüksək səviyyəlidirmi? Əlbəttə ki, xeyr. Siz mənə elə jurnal, elə qəzet göstərə bilərsinizmi ki, bütün nömrələrində, bütün səhifələrində bütün mətnlər əlahəzrət mətnin yüksək standartlarına ali səviyyədə uyğun olsun?!.

**- "Ədəbi Əks-səda"da müəllif Ülviyyə Niyazqızının şeirləri sovet filmlərini xatırladtı, sanki "Qəribə təsadüf və ya həmişə təmizlikdə" filmində səslənən mahnının mətnidir. Çox üzr istəyirəm, mənə plagiat təsiri bağışladı... Xəbəriniz var, o şeirdən?**

- Hər bir qəzetin son səhifəsində qeyd edilir ki, müəlliflə redaksiyanın fikri üst-üstə düşməyə bilər. Yaxşı olar ki, bu suala Ülviyyə xanım özü cavab verərdi. Amma bildiyim, tanıdığım qədər Ülviyyə xanım plagiatlığa yol verməz. Mətndə plagiatlıq şübhəsi yaradan amillər varsa, inanın ki, bu səmimi bir nostaljidir, xoş bir təsirlənmədir. Hər birimiz nə zamansa, hansısa şeirdən, hansısa mətndən təsirlənmişik. Bəzən bilmədən oğurluq da etmişik. Məsələn, bəzən elə olur ki, 5 il əvvəl oxuduğum kitabdan bir cümlə qəfil gəlir beynimə. Ancaq elə zənn edirəm ki, bu cümlə öz beynimin, öz qəlbimin məhsuludur. Bu, bilmədən oğurluq sayılır. Bizi alt şüurumuz idarə edir. Bir cümlə ilişib qalır beynində, 5 il sonra cümlə kimi ağ kağıza köçürülür. Sənsə elə zənn edirsən ki, bu cümləni özün yazmısan. Həyatımız da plagiatdır əslində, bizdən əvvəl də bizim kimilər olub, bizim yaşadıqlarımızı yaşayıb, bizdən sonra da bizim yaşadıqlarımızı yaşayacaqlar. Həyatın plagiat olduğu dünyada şeir plagiat olmazmı? Ülviyyə xanım da özüm üçün kəşf etdiyim müəllif oldu. Şeirlərini bəyəndim. İçdən yazıb, səmimi yazıb, təbii yazıb. Ədəbiyyatda ən ali amil təbiilikdir, səmimiyyətdir.

**- Çox sağ olun belə səmimi cavablara görə. Başqa nə deyə bilərik... Sizə uğur arzu edirik.**

- Mən də qəzetimizə, işimizə göstərdiyiniz diqqət üçün sizə təşəkkür edirəm. Çox sağ olun.

**Söhbətləşdi: Məlahət Rzayeva**

# Prestijli iş tapmaq üçün xarici dil amili vacibdir

## Zamanla Azərbaycan dilindən əldə edilən nəticə xarici dillərlə eyni olacaq



**Abituriyentlərin buraxılış imtahanlarında Azərbaycan dili fənnindən göstərdikləri nəticələrinin ingilis dilinə nisbətdə zəif olması ilə bağlı müəllimlər arasında sosial mediada müzakirələr edilir.**

Onların bir qismi bunu Azərbaycan dili fənnindən imtahan suallarının çətin olması, uşaqların ana dilini bilməməsi ilə, digər qismi isə ingilis dilində mövzuların daha az və vahid istiqamətdə olması ilə əlaqələndirir.

Maraqlıdır, bəs görəsən, abituriyentlərin imtahanda ingilis dili fənnindən daha yüksək nəticə göstərməsinin səbəbi nədir?

**Məsələ ilə bağlı danışan Ali təhsil məsələləri üzrə ekspert Vüsal Kərimli "Şərq"ə bildirib ki, problem hər kəsi narahat edir:**

"Əslində, Azərbaycan dili dərslikləri klassik formadan oxuyub- anlama, təhliletməyə yönəldiyi üçün şagirdlər, müəllimlərə çətinliklər yaradır. Fikrimcə, müəyyən zaman keçdikdən sonra Azərbaycan dilindən əldə edilən nəticə xarici dillərlə eyni səviyyədə olacaq. Nəzərə almaq lazımdır ki, inteqrasiya tək kitabın çap olunması demək deyil. Eyni zamanda tədris prosesində iştirak edənlər də yeni metoda alışmalıdırlar. Bunun üçün isə zamana ehtiyac var. Qeyd edim ki, Azərbaycan təhsilində ən böyük problemlərdən biri şagirdlərin və tələbələrin xarici dil biliyinin zəif olmasıdır. Hazırda məktəblərdə xarici dil kimi ingilis, rus, alman, ərəb, fransız, fars dilləri tədris olunur. Buna baxmayaraq, şagirdlər orta məktəbi həmin dilləri yaxşı mənimsəməmiş şəkildə bitirirlər. Ona görə də əksər valideynlər övladının xarici dilə yaxşı yiyələnməsi üçün ya repetitor yanına, ya da əlavə kurslara yazdırırlar. Qeyd edək ki, xarici dil səviyyənizin yüksək olmasının bir çox mühüm üstünlükləri var. Məsələn, xarici dil biliyi yaxşı olan şəxslər daha tez və prestijli iş tapmaq imkanına malik olurlar. Bu da müəyyən qədər şagirdlərin nəticələrinə təsir edir".

**Nəzrin Vüqarqızı**

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "mpox" xəstəliyinin (meymunçiçəyi) yayılması ilə əlaqədar beynəlxalq əhəmiyyətli ictimai səhiyyə sahəsində fövqəladə vəziyyət rejiminin saxlanılması barədə qərar qəbul edib.**





Oxu.Az-ın verdiyi məlumata görə, bu barədə ÜST-nin Baş direktoru Tedros Adhanom Qebreyesus "mpox" üzrə fövqəladə komitənin ekspertlərinin tövsiyələri əsasında açıqlama verib.

# Böyük pandemiya dövrünə oxşamayacaq

## Meymunçiçəyinin Azərbaycan kimi ölkələrdə yayılma ehtimalı azdır

Komitə meymunçiçəyi xəstəliyinin artması səbəbindən 2022-ci ilin avqustundan sonra ikinci dəfə noyabrın 22-də toplanıb. Ekspertlər belə nəticəyə gəliblər ki, xəstəlik beynəlxalq əhəmiyyətli ictimai səhiyyə sahəsində fövqəladə vəziyyət təşkil etməkdə davam edir.

ÜST-nin məlumatına görə, bu qərarın əsasını xəstələrin sayının artması və "mpox"un coğrafi yayılmasının davam etməsi təşkil edir ki, bu da ölkələr və tərəfdaşlar tərəfindən əlaqələndirilmiş cavab tədbirlərinin görülməsini tələb edir. "Mpox" üzrə fövqəladə komitənin hesabatı gələn həftə dərc ediləcək.

Daha əvvəl ÜST bildirmişdi ki, 1 yanvar 2022-ci ildən 30 sentyabr 2023-cü ilədək dünyada 123 ölkədə 236 ölüm hadisəsi də daxil olmaqla 109 699 təsdiqlənmiş "mpox" hadisəsi qeydə alınıb. Meymunçiçəyi ilə əlaqədar qlobal səhiyyə fövqəladə vəziyyəti əvvəlcə 2022-ci ilin iyulundan 2023-cü il mayın 11-dək qüvvədə olub. Bu rejim xəstəliyin azalması səbəbindən ləğv edilib, lakin bu ilin avqustun 14-də Qebreyesus Afrikada xəstəliyin yeni alovlanması səbəbindən yenidən fövqəladə vəziyyət elan edib.

**İnfeksionist-həkim Mərdan Əliyev "Şərq"ə söyləyib ki, meymunçiçəyi xəstəliyinə Avropada və bəzi ölkələrdə yoluxma davam edir:**

"Afrika ölkələrində vəziyyət daha pisdir. Ancaq ora endemik bölgə olduğu üçün meymunçiçəyi xəstəliyi olur. Avropa və Amerikada müəyyən qədər yayılma olduğuna görə hələ ki, vəziyyət stabildir. Ehtiyatlı olmaq lazımdır. Ancaq bu xəstəlik Azərbaycana hələ gəlməyib. Qonşu ölkələrdə bir, iki hadisə olsa da artımlar müşahidə edilmədi. Çünki bu xəstəliyin artması koronavirusdakı kimi deyil. Meymunçiçəyi təmas yolu ilə yoluxur. Ona görə də bizim kimi ölkələrdə yayılma ehtimalı çox deyil".

**Professor Adil Qeybulla isə deyib ki, meymunçiçəyi virusu çiçək virusu qrupuna aiddir:**

"Bura təbii çiçək və suçiçəyini də nümunə kimi göstərmək olar. Təbii çiçək isə çox təhlükəli bir infeksiyadır. Karantin növlü infeksiya olduğuna görə, milyonlarla insanın həyatına son qoyub. Meymunçiçəyi virusu isə heyvanlardan insanlara transfer etmiş virusdur. Onun da əlamətləri təxminən təbii çiçəkdəki kimidir. Ancaq təbii çiçək qədər öldürücülük qabiliyyəti olmasa da, infeksiyanın yayılması göstərir ki, yeni xüsusiyyət əldə edə bilər. Birdən-birə bəşəriyyət sürprizlərlə üz-üzə qala bilər. Hazırda vaksin hazırlanıb, klinik çalışmalar gedir. Nəzərdə tutulub ki, təbii çiçəyin də vaksini bunun üçün effektli ola bilər. Yəqin ki, bununla bağlı önləyici tədbirlər görülür. Meymunçiçəyinin geniş epidemiyalar və pandemiyalar yaradacağını düşünmürəm. ÜST bu işin öhdəsindən gələcək".

**Fidan Həmişəyeva**

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2691



**Dialoq...**

**Dəyərli oxucular! Bu fotoya ən yaxşı şəkilaltı söz yazanı yeni ildə hədiyyə gözləyir!**

Xahiş *olunur bu boş yerə "polislə babanın dialoqu"nu yazıb göndərəsiniz.*

------------------------------------------------------------------------
------------------------------------------------------------------------
------------------------------------------------------------------------
------------------------------------------------------------------------

**QEYD:** Bu hissəni kəsib zərfdə redaksiyaya göndərmək şərtdir.

**ÜNVAN:** "Azərbaycan Nəşriyyatı", "Şərq" qəzeti redaksiyası, 7-ci mərtəbə.



# Zəlzələyə davamlı evlər...

## Yanmış taxtadan tikilir



**Yanmış taxtalar tikinti sənayesi üçün inanılmaz faydalıdır. Yanmış taxtalardan tikilən evlərin daha uzunömürlü, hətta yüz illərlə sabit qaldığı, zəlzələyə, yanğınlara da davamlı olduğu sübut edilib.**

Yanmış taxtaların təbiətə meydan oxuyacaq qədər gücü nədən qaynaqlanır? "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, tikintidə yanmış taxtalardan istifadə taktikası 1603-cü ildə Yaponiyada kəşf edilib, üzərindən təxminən 300 il keçdikdən sonra İstanbul zəlzələsində bunun izlərinə rast gəlinib. İstanbul ən böyük yanğınların məngənəsində olan, taxta evlərdən ibarət məhəllələrini alovların dəqiqələr içində bürüdüyü bir şəhər olub. Osmanlı dövründə yayılmış taxta konstruksiyalar çox tez yandığından şəhərin məşhur yanğınlarına tab gətirə bilməyib. Üstəlik, həşərat və göbələk populyasiyasının çox olduğu və iqlim şəraitinin bu canlıların böyüməsi üçün əlverişli olması şəhərin tikinti fonduna mənfi təsir göstərib. Lakin digər tikinti materiallarına nisbətən daha tez xarab olan taxta konstruksiyalar, doğru texnikadan istifadə edildikdə, uzunömürlü ola bilir. İstanbulun ən qədim taxta evi olan Amcazade Hüseyin Paşa Köşkü 17-ci əsrdən günümüzə qədər ayaqda durmaqdadır. Yanğın zamanı qısa müddətdə külə çevrilən taxta konstruksiyaların "təsadüfi" kəşfi yaponları tikinti texnikası baxımından birinci sıraya çıxarıb. Odun yandırıldıqda yanğına, həşəratlara və göbələklərə qarşı daha davamlı olur. Yaponların inşaat sirri və bu yanmış qara lövhələrlə edilən konstruksiyalar, Orta Doğu Texniki Universiteti İnşaat Mühəndisliyi müəllimi professor Ahmet Türer kəşfin əsasını izah edib. Professor qeyd edib ki, əsrlərlə davam edəcək odun yandırma texnikası ilə inşa edilən tikililərin tarixi 1603-cü ilə gedib çıxır. Yaponiyada bu texnika ilə hazırlanmış və 400 il dayanan Yakisugi adlı bir quruluş da buna işarə edir. Saga Toriimoto bölgəsindəki köhnə binalar illərə meydan oxuyur. Demək olar ki, hər il böyük zəlzələlərlə sarsılan Yaponiyada onların heç biri dağılmayıb. İlk günkü kimi gözəl görünən lövhələrə həşəratlar yerləşməyib, göbələk və kif müşahidə olunmur, həşəratların yeyib dağıda bilmədiyi evin zəmini, divarları zərər görmür. Bunun ən başlıca səbəbi tikililərin yanmış taxta ilə örtülməsidir. Hər 15 ildən bir isə təmir işləri aparılarsa, evin ömrü daha çox uzanacaq. Professor Ahmet Türer bildirib ki, bu cür üsullar "evristik" adlanır: "Azca yanmış odunların uzun müddət xarab olmadan meşədə qaldığını görən ağıllı müşahidəçi bundan istifadə edərək odunu xarici şəraitə daha davamlı edib. Bu üsulda ağacın səthində karbon təbəqəsi əldə etmək üçün dərin yanma aparılır. Bu gün Yaponiyada ənənəvi evlər üçün istifadə edilən üsula müasir binaların üzlənməsi üçün də üstünlük verilir. Sugi, yapon sidr ağacıdır, tikintidə həm ondan, başqa ağaclardan yandırılma üsulu ilə istifadə edilir. Təyin edilmiş yanma vaxtı bitdikdə yanğın su ilə dayandırılır. Yaponiyada bəzi ənənəvi bina tiplərində taxtanın çöldəki hissələri idarə olunacaq şəkildə yandırılır və bu hissələr xarici görünüşə təsir edən amillərə qarşı daha möhkəm olur. Əslində taxta material artıq xarici şəraitə qarşı müəyyən müqavimətə malik hal alır", söyləyib. Professor qeyd edib ki, yanmış taxta həşəratlara yuva olmaq təhlükəsi daşımır deyə, onlar tərəfindən "yeyilmir", nəticədə çürümə prosesi baş vermir, yanğında yanmaya məruz qalmır, üstəlik zəlzələyə də davamlıdır. Xarici səthlərdə istifadə olunacaq ağacların xarici amillərə davamlı olması vacibdir. Bu ağaclar su, yağış, həşərat və göbələk kimi faktorlara məruz qalmır deyə, daha uzunömürlü olurlar. Yakisugi üsulu ilə hazırlanmış yanmış ağacdan ev tikmək bir çox digər tikinti materiallarından istifadə etməkdən daha sərfəlidir. İstehsal prosesində demək olar ki, karbon qazı buraxmayan Yakisugi müasir üsullardan daha ucuz və uzunömürlüdür. 100 kvadratmetrlik yakisugi evinə sahib olmaq üçün 167 min lirəyə sahib olmaq kifayətdir. Taxta evlərin daş, beton, kərpic evlərə nisbətən daha davamlı olması sübuta yetirilib. Termo ağaclardan tikintilərdə indi geniş istifadə edilir. Xarici görünüşcə "yanmış ev" hər kəs tərəfindən bəyənilməyə bilər, amma dözümlülüyü və davamlılığına şübhə la bilməz. Vizual görüntünü isə dəyişmək mümkündür.

**Məlahət**



# Türkiyədə Çin məhəlləsi qurulur

## 2500 çinli işçi və ailələri gələcək

**Manisada BYD-nin investisiyası üçün hazırlıqlar başlayıb.**

1 milyard dollar sərmayə qoyacaq şirkətin fabriki 2026-cı ildə istehsala başlayacaq. Bölgədə 20 min nəfərin işlə təmin olunacağı gözlənilir. Manisa Böyükşəhər Bələdiyyə başçısı Zeyrek 2500 çinli işçinin ailələri ilə birlikdə bölgəyə gələcəyini bildirib. Zeyrek, Manisada Çin küçəsi üçün işlərin başladığını söyləyib.

"Şərq" xəbər verir ki, Çinin elektrikli avtomobil nəhəngi BYD Türkiyəyə 1 milyard dollarlıq sərmayə üzərində işə başlayıb. Şirkətin Manisadakı fabrikinin tikintisinə 2025-ci ildə başlanması planlaşdırılır. 2026-cı ildə istehsala başlayacaq fabrikin bölgə məşğulluğuna təsirinin 20 minə çatması gözlənilir.

Manisa Böyükşəhər Bələdiyyə Başçısı Ferdi Zeyrek BYD-nin Manisada fabrik qurmasının şəhər iqtisadiyyatına ciddi töhfə verəcəyini bildirib. Zeyrek, təxminən 20 min adamın işlə təmin olunacağı bölgəyə 2500 çinli işçi və ailələrinin gələcəyini də vurğulayıb. BYD-nin sərmayəsinin Manisada qalmalı olduğunu bildirən Zeyrek, "Çin küçəsi də daxil olmaqla yeni yaşayış sahələri yaratmağa çalışıram. Mən memaram və həll yolu tapmaq üçün doğru peşəyə sahibəm" deyə qeyd edib.

**Başqa bir Vestelin Manisaya gəldiyini bildirən Zeyrek çıxışını belə davam etdirdi:** "Təxminən 20 min adamın çalışacağı bir sahədən danışırıq. Burada yan sənayelər də onunla birlikdə gəlməyə başlayır. Gələn sənayeçiləri yeni istiqamətlərə yönəldirəm. OSB bölgələri Soma və Kırkağaç inkişaf edəcək. Bunun üçün logistika mərkəzi yaratmağa çalışırıq. Alsancak Limanı artıq limitlərinə çatıb. Soma üzərindən Əliağa və Çandarlı limanlarına getməyi planlaşdırırıq. "Şəhəri TCDD-dən bir dəmir yolu ilə yeni bir logistika mərkəzinə qədər genişləndirməliyik."

**Turan**

# Xəstənin gözləri yoxa çıxdı

## Xəstəxanada dəhşətli hadisə yaşanıb



**Hindistanda böyük əks-səda doğuran hadisə olub.**

Milli.Az xarici mətbuata istinadən xəbər verir ki, Hindistanın Bihar əyalətində silahlı hücumda ölən kişinin nəşi morqdan ailəsinə təhvil verilərkən sol gözünün yoxa çıxdığı diqqət çəkib.

Ailə meyitin yanında cərrahi bıçaq tapdıqlarını, gözün oğurlandığını iddia edərək polisə şikayət ediblər. Onlar xəstəxana işçilərini günahlandırıb.

Xəstəxana həkimləri ailənin ittihamlarına qarşı açıqlama verib və itkin gözün siçanlar tərəfindən dişlənmiş ola biləcəyini müdafiə ediblər. Lakin bu müdafiə nə ailəni, nə də ictimaiyyəti qane edib.

Hadisə rezonans doğurduqdan sonra xəstəxana rəhbərliyi ətraflı araşdırmağa başlanıldığını açıqlayıb.Təhlükəsizlik kameraları yoxlanılacaq, həkimlərin ifadələri alınacaq.

# İlk sırada İbrahim Tatlısəs yer alıb

## Türkiyənin ən varlı müğənniləri və sərvətləri açıqlandı



**Türkiyənin ən varlı müğənnilərinin adları açıqlanıb.**

Axşam.az xəbər verir ki, siyahıda ilk sırada İbrahim Tatlısəs yer alıb. Onun ümumi sərvəti 66 milyon dollar təşkil edir.

65 milyon dollar sərvəti ilə ikinci sırada Əmrah İpək qərarlaşıb. Hər iki sənətçi sərvətlərini daşınmaz əmlak investisiyaları və biznes təşəbbüsləri vasitəsilə artırıblar.

Siyahıda adını 3-cü sıraya Murat Boz yazdırıb. Onun sərvəti 60 milyon dollardır.



# Hansı daha faydalıdır

## Sarı, yoxsa ağ kərə yağı?

**Kərə yağı səhər süfrələrinin də, mətbəxlərin də vaz keçilməzidir. Amma son illərdə saxta yağlar o qədər çoxaldı, möhtəkirlik o qədər artdı ki, insanlar kərə yağına inamı itirdi. İndi hətta bölgələrdən, kənddən gətirilən, göndərilən kərə yağına da etibar etmək olmur. Rəng məsələsi də insanların şübhəsini artırır. Kərə yağınını bəzən sarı, bəzən də sarımtıl, hətta ağ, süd rəngində olanları da satılır. Qida mütəxəssisləri sarı kərə yağı ilə ağ rəngdə olanın fərqini izah edib.**



"Şərq" "Millieyt.com.tr"yə istinadən xəbər verir ki, kərə yağının rəngi inəyin südündən, daha dəqiq desək, sağılan inəyin nəylə qidalandığından asılıdır. İnəklər tərkibində beta-karotin olan təzə ot yeyəndə sağılan süddən hazırlanan kərə yağı sarı rəngdə olur. Otun tərkibindəki beta-karotin maddəsi südə - ondan hazırlanan kərə yağına rəng verən piqmentdir. Ona görə də təzə otla qidalanan inəklərin südündə beta-karotin maddəsi çox olur, nəticədə inəyin südü də yağlı olur. Ancaq inəklərin yemində tərkibində bu piqment əskikdirsə, süd yağsız olur və açıq rəng alır. Kərə yağının rənginə və keyfiyyətinə sağmal heyvanların yeminin böyük təsiri var. Kərə yağı haqqında bilməli olduğunuz başqa bir təfərrüatı da məhsulun hazırlanma vaxtı ilə əlaqədardır. Qışda sağılan heyvanın südü ilə, yaz-yay aylarında sağılan heyvanın südü fərqlidir. Əgər marketlərdə açıq rəngli və demək olar ki, ağ kərə yağı görürsünüzsə, bunun böyük ehtimalla qış südündən hazırlandığını başa düşməlisiniz. Yağın açıq rəngdə olmasının digər səbəbi isə yağsız süddən alınmasıdır. Tərkibində az yağ olan süddə onu sarıya çevirən piqment yoxdur. Piqment çatışmazlığı və qidalanma ilə yanaşı, emal üsulu da yağın rənginə təsir edən amillərdəndir. Kərə yağı həddən artıq emal edildikdə və bərk çırpılanda onun içində hava qabarcıqları yığılmağa başlayır. Bu qabarcıqlar işığı əks etdirərək yağın daha az sarı olmasına səbəb olur. Tutqun və ağ görünüşə malik olan kərə yağının əsas problemi onun emal çətinlikləridir. Lakin bu, kərə yağı istehlakında heç bir problem yaratmır. Hansı kərə yağının ən faydalı olduğu ilə maraqlananlar üçün cavabımız sarı rəngli kərə yağıdır. Lakin bu o demək deyil ki, ağ kərə yağı tamamilə faydasızdır. Bu, həm də insanların seçimindən asılıdır. Elə insanlar var daha az yağlı məhsulu tərcih edir. İstifadə etdiyiniz kərə yağının orijinal olub-olmadığını anlamaq üçünsə belə üsul tətbiq edə bilərsiniz; bir parça kərə yağı götürün və isti su ilə bir qazana atın. Bir parça əriyib kiçilirsə, gerçəkdir, suda parçalanmağa davam edirsə, saxtadır. Bazarda mövcud olan müxtəlif yağ növlərini belə ayırd edə bilərsiniz.

**Məlahət**

# Dünyada bir ilk yaşandı

## Robot cərrah əməliyyat etdi, xəstə tarixə düşüb





**ABŞ-nin Nyu-York Universitetinin (NYU) tərkibindəki Langone Sağlamlıq Tibb Mərkəzində bir ilkə imza atılıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Xroniki Obstruktiv Ağciyər Xəstəliyi (KOAH) olan 57 yaşlı qadına "tam robot əməliyyatı ilə ikiqat ağciyər transplantasiyası" həyata keçirilib.

Xəstəxanadan verilən açıqlamada oktyabrın 22-də həyata keçirilən əməliyyatda qabırğalar arasında kiçik kəsiklər edildikdən sonra (minimal invaziv cərrahi üsul) ağciyərin robot sistemlə çıxarıldığı, nahiyənin transplantasiyaya hazırlandığı və yeni ağciyər yerləşdirildiyi bildirilib.

Hər iki ağciyərin robot texnika ilə köçürüldüyü vurğulanıb.

Dünyanın ilk tam robotik qoşa ağciyər transplantasiyasını alan KOAH xəstəsi Cheryl Mehrkar, "Mənə həyatda bir şans verdiyi üçün donora və ailəsinə minnətdaram. Uzun müddət mənə kifayət qədər uyğun xəstə olmadığını söylədilər. Transplantasiya üçün NYU Langone Health komandası ilk növbədə mənim həyat keyfiyyətimə diqqət yetirdi və mənə ümid verdiyi üçün buradakı həkimlərə və tibb bacılarına minnətdaram" deyib.

Da Vinci Xi robot cərrahiyyə texnologiyasından istifadə edərək əməliyyatı həyata keçirən Dr. Stepani H.Chang deyib: "Xəstələrin sağlam həyat keyfiyyətinə qayıtmasına kömək etmək ən böyük xoşbəxtlikdir. Bu robot sistemlərdən istifadə etməklə biz bu böyük əməliyyatın xəstələrə təsirini azaltmağı, onların əməliyyatdan sonrakı ağrılarını məhdudlaşdırmağı və onlara mümkün olan ən yaxşı nəticəni verməyi hədəfləyirik. Bu, istedadlı cərrahlar qrupu və orqan transplantasiyasını inkişaf etdirməyə həsr olunmuş bir qurum olmadan baş verə bilməzdi".

Ağciyər xəstəliyinə genetik meyli olan Mehrkarın 2010-cu ildə 43 yaşında ikən KOAH diaqnozu qoyulduğu, 2022-ci ildə koronavirusa yoluxduqdan sonra vəziyyətinin pisləşdiyi bildirilib. Əməliyyatdan bir ay keçən Mehrkarın tezliklə xəstəxanadan evə buraxılacağı öyrənilib.

**Turan**